# DTX və MEDİA-dan vətəndaşları çağırış

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№13 (3304) 9 Aprel / 2024-cü il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik

ANA XƏBƏR



## Əhməd Əhmədov barəsində ekspertiza rəyi açıqlandı

# İsrail Qəzzadan çəkildi, növbəti hədəf İrandır?



## Və yaxud Fransanın Odessaya qoşun yeritməkdə məqsədi nədir?

4

GÜNÜN NƏBZİ

Müsahibə



## "Bütün növ asılılarda “sağalma” sözü yoxdur..."

Ramin Allahverdiyev: “O üzdən “saxlama müddəti” deyirik, “sağalama” sözündən narkomaniyada istifadə etmirik”

6

Xəbər

## ADP siyasi siyasi məhbusların sayının artmasından narahatdır

Partiya hakimiyyəti ölkədə insan hüquq və azadlıqlarına sayqı ilə yanaşmağa çağırıb

2

Cəmiyyət

## Müdafiə Nazirliyində 1,9 milyonluq yeyinti

“Rövşən Əliyev deyirdi ki, bu qədər artıq yaz, biz də yazırdıq”

4

Siyasət

## Tacikistan uğrunda savaş

Çin və Hindistanla yanaşı, İran da bu ölkəyə göz qoyub...

10

Cəmiyyət

## “Dedi ki, sən kol dibində yatmısan”

Qarabağ döyüşçüsü yol polisi tərəfindən təhqir olunduğunu iddia edir

4

Sərbəst



## Xəlil Rza Ulutürkün mitinqdə tərifləndiyi DTK əməkdaşı...

Aydın Ələkbəroğlu kim olub?

14

MEDİA



## "ABŞ Rusiyanı Cənubi Qafqazdan çıxarmaq istəyirsə..."

Məhəmməd Əsədullazadə: "Qərb və Rusiya Ermənistana dəstək verməklə Azərbaycanın sülh istəyinin qarşısını alır"

8-9

Şəhid

## Lələtəpə fatehi

Şəhid mayor Rasim Məmmədovun anım tədbiri keçirilib

Babək Rayon Cəhri qəsəbə Musiqi Məktəbində şəhid mayor Rasim Məmmədovun anım günü keçirilib. Əvvəlcə Ulu Öndər Heydər Əliyev və suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova çıxış edərək bildirib ki, Naxçıvan torpağının igid oğlu Rasim Məmmədov Füzuli rayonu ərazisində yerləşən Lələtəpə yüksəkliyinin azad olunması əməliyyatında igidlik göstərərək şəhadətə yüksəlib...

7

Xəbər

## “Crocus City Hall” teraktı ilə bağlı yeni faktlar

Terorru həyata keçirən şəxslər təşkilatçının adını çəkdilər...

Rusiyanın “Birinci Kanal” və “Rusiya 1” telekanalları Moskva yaxınlığındakı “Crocus City Hall”da terror aktı törətməkdə təqsirləndirilən dörd nəfərin dindirilməsinin görüntülərini yayıb. Hurriyyet.az xəbər verir ki, istintaq tacik əsilli Dalerjon Mirzoyevi, Raçabalizoda Saidakrami Murodalini, Fəriduni Şəmsidini və Məhəmmədsobir Fayzovu hücumun birbaşa icraçıları hesab edir. “Birinci Kanal”ın yayımladığı reportajda iddia edilir ki, təqsirləndirilən şəxslərdən terror aktını törətmək əmrini kimin verdiyini soruşduqda hamısı “Sayfullo”nın adını çəkiblər...

2

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№13 (3304) 9 Aprel / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik


# Universiteti atdı, ölkənin ən gənc milyarderi oldu

**Cəmi 31 yaşında olan Ben Frensis idman geyimləri brendi "GymShark"ın uğurları sayəsində Britaniyanın ən gənc milyarderi kimi tarixə düşüb.**

Təəccüblüdür ki, o, bu yüksəkliyə universitet təhsili olmadan və pizza çatdırılması xidmətində işləməyə başlayaraq gəlib. Ben Frensisin uğura aparan səyahəti əsl özünü dərketmə hekayəsidir. O, sahibkarlığın xeyrinə universitet təhsilindən imtina edərək qeyri-adi bir yol seçib.






Pizzacıda kuryer kimi sadə bir işə başlayan Ben məqsədinə çatmaq üçün səyini dayandırmayıb. Qarajda "GymShark"ın yaradılması onun qətiyyətini və sahibkarlıq ruhunu göstərir. İndi onun uğuru bir çox gənc sahibkarlar üçün ilham mənbəyidir.

İndi onun "GymShark" brendi təkcə ulduzları və məşhur simaları cəlb etmir, həm də 230-dan çox ölkədə müştərilərin etibarını qazanır. 1,2 milyard funt sterlinq dəyərində qiymətləndirilən xalis sərvəti təkcə onun sahibkarlıq uğurunu deyil, həm də qlobal idman geyimləri bazarına əhəmiyyətli təsirini əks etdirir.

Ben Frensis biznesə verdiyi töhfələrə görə Britaniya imperiyasının ordeni ilə təltif edilib. Bu ali mükafatı şəxsən şahzadə Uilyam təqdim edib ki, bu da onun Britaniya biznesindəki nailiyyətlərinin əhəmiyyətini vurğulayır.

"Mükafatı aldığım zaman bu, yəqin ki, həyatımda ən sürreal hiss idi. Məni əhatə edən və məni dəstəkləyən hər kəsə çox minnətdaram", - Frensis söyləyib.

Frensis bir çox digər uğurlu sahibkarlardan onunla fərqlənir ki, o, uğurunu sərvət toplamaqla əlaqələndirmir. Onun üçün uğurun əsas ölçüsü biznesinin inkişafıdır və o, maddi vəziyyətinə baxmayaraq, bütün diqqətini bu məqsədə yönəltməyə davam edir.

# İlon Mask marsda şəhər salır

## 1 milyon insan göndərəcək

**"SpaceX" şirkəti rəhbəri İlon Maskın çıxış etdiyi böyük təqdimat mərasimi keçirib. Stopnarkotik.az xəbər verir ki, milyarder "SpaceX"in gələcəyi barədə fikirlərini, həmçinin Mars planetində məskunlaşma ilə bağlı təxmini planlarını bölüşüb.**





Milyarderin sözlərinə görə, nəhəng "Starship 3" raketi Marsın kolonizasiyası üçün baza rolunu oynayacaq. O, yeni nəsil "Raptor" mühərriki ilə təchiz edilib və bunun sayəsində raket 200 tona qədər yük daşıya biləcək.

Mask "Starship 3"ün nə vaxt istifadəyə veriləcəyini açıqlamayıb, lakin bunun şirkətə çox az xərclə başa gələcəyini vurğulayıb. Onun sözlərinə görə, əgər "Falcon 1"in buraxılışı indi 10 milyon ABŞ dollarına başa gələcəksə, "Starship 3"ün qiyməti 2-3 milyon dollar olacaq.

"Bunlar demək olar, ağlasığmaz rəqəmlərdir. Heç kim bunun mümkün olacağını düşünmürdü. Üstəlik, qarşıya qoyulan məqsədə çatmaq üçün fizika qanunlarını heç pozmağa da ehtiyac qalmayacaq", - Mask qeyd edib. Bundan əlavə, "SpaceX"in rəhbəri əlavə edib ki, Marsın mənimsənilməsi şirkətə təxminən 20 ilə başa gələcək. Onun sözlərinə görə, bu müddət ərzində bir milyona yaxın insan qırmızı planetə göndəriləbilər ki, bu da özünü təmin edən müstəmləkə şəhəri yaratmaq üçün kifayətdir. Mask gəmilərin təxminən iki ildən bir Marsa getməsini istəyir. Bu qanunauyğunluq müstəmləkəçilərə təkcə müntəzəm resurs tədarükü ilə deyil, həm də Yerə qayıtmaq imkanı verəcək. Eyni zamanda, milyarder hesab edir ki, qəsb ediləcək Marsın yeni sakinlərinin əksəriyyəti hələ öz planetlərinə qayıda bilməyəcək.

## Əyləncə səhifəsi

# Ölməzdən 1 ay əvvəl hər kəsin gördüyü yuxular



**Los-Angeles hospitalının tibb bacısı Culie Fadden insanların ölməzdən əvvəl nə gördükləri ilə bağlı mühüm müşahidələrini paylaşın. O qeyd edib ki, "demək olar ki, bütün insanlar" ölməzdən təxminən bir ay əvvəl təselliverici görüntülər yaşayırlar.**

Lent.az xəbər verir ki, o, müşahidələrini "TikTok" hesabında paylaşıb. "Qorxulacaq heç bir şey" kitabının müəllifi MakFadden deyir ki, "rahatlıq" deyilən görüntülər adətən ölümdən təxminən bir ay əvvəl baş verir. O, həyatlarının son mərhələsində xəstələrlə işləmək təcrübələrini ətraflı şəkildə izah edərək, onların bir çoxunun dünyasını dəyişən yaxınlarını görməyə başladığını qeyd edib.

"Bu hal qeyri-adi deyil. Bu təcrübəni yaşayan insanların çoxu tam şüurlu olaraq qalır və halüsinasiyalardan əziyyət çəkmir", tibb bacısı izah edib. Onun sözlərinə görə, bu görüntülərdə ölmək üzrə olan insan öz qohumlarını, yaxın dostlarını və hətta son anlarında onlara təsəlli vermək və dəstək olmaq üçün gələn ev heyvanlarını da əhatə edir.

MakFadden həmçinin qeyd edib ki, halüsinasiyalar və ya xəyalların nəticəsi olmayan bu görüntülər ölənlərə rahatlıq gətirir. Onun sözlərinə görə, belə görüntülər zamanı insanlar tam şüurlu olurlar.

# Ancelina Colidən Bred Pittə zorakılıq ittihamı




**Hollivud aktrisası Ancelina Coli keçmiş əri Bred Pitti ona və uşaqlarına qarşı fiziki zorakılıqda ittiham edib. Qeyd olunur ki, Coli keçmiş əri ilə ortaq bizneslərinə zərər verməmək üçün məlumatı açıqlamasını qadağan edən gizli razılaşmaya görə, əvvəllər bu barədə susub.**

Xatırladaq ki, Coli 2016-cı ildə Pittdən boşanmaq üçün məhkəməyə müraciət edib. Aktyorların boşanma prosesi üç il davam edib. Buna səbəb aktyorun övladlığa götürdüyü oğlu Meddoksu döyməsi olub. İndi məlum olub ki, bu, yeganə hal deyil. Colinin sözlərinə görə, 2016-cı ilə qədər ona qarşı fiziki zorakılıq epizodları olub. Keçmiş ərinin cütlüyə məxsus üzüm bağlarını bərabər bölmək üçün imzalamağa məcbur olduğu razılaşmaya görə, aktrisa bu barədə danışmayıb.


**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# DTX və MEDİA vətəndaşları saxta xəbərlərə inanmamağa çağırdı




**Son günlər bəzi sosial şəbəkələrdə Azərbaycan-Ermənistan sərhədində gərginliyin artması, Azərbaycan Ordusunda şəhidlərin və yaralıların olması, qoşun birləşmələrinin və ağır artilleriya silahlarının hazırlıq vəziyyətinə gətirilməsi, Laçın rayonu ərazisində komendant saatının tətbiq edilməsi ilə bağlı bir sıra şəxslər tərəfindən əsassız məlumatlar, reallığı əks etdirməyən saxta xəbərlər yayımlanır.**

Bu barədə Medianın İnkişafı Agentliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin məlumatında bildirilib.

Məlumatda, həmçinin qeyd olunur ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən aparılan araşdırmalar nəticəsində cəmiyyətdə narahatlığın yaranmasına səbəb olan bu kimi məlumatları yayan şəxslərin Azərbaycan Respublikasının vətəndaşları - 1977-ci il təvəllüdlü Əliyev Rəşad Balağa oğlu və 1973-cü il təvəllüdlü Məlikov Pərviz Ramiz oğlu olduğu müəyyən edilib, onların belə məlumatları yaymalarının qarşısı alınaraq zəruri hüquqi prosedur tədbirlər həyata keçirilib.

Medianın İnkişafı Agentliyi və Dövlət Təhlükəsizliyi Xidməti sözügedən əməllərin törədilməsinin ciddi hüquqi məsuliyyətə səbəb olduğuna dair xəbərdarlıq edərək media subyektlərini və jurnalistləri sosial şəbəkələrdə yayımlanan qeyri-dəqiq, mənbəyi bilinməyən məlumatlardan istifadə etməməyə, vətəndaşları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, sosial şəbəkələrdə yayılan, rəsmi mənbələrə söykənməyən əsassız informasiyalara inanmamağa çağırır.

# Əhməd Əhmədov barəsində ekspertiza rəyi açıqlandı



**Ailə üzvlərini qətlə yetirməkdə təqsirli bilinən Əhməd Əhmədovun barəsində keçirilən psixoloji ekspertizanın rəyi məlum olub.**

Həkim-ekspertlər tərəfindən verilən rəyə əsasən, Əhməd Əhmədovun hadisəni anlaqsız törətməsi, psixi xəstəliyinin olması ilə bağlı rəy verilib.

Həmin rəy istintaq orqanına təqdim edilib.

Ə.Əhmədov hazırda 1 saylı İstintaq Təcridxanasında saxlanılır. Bir müddət əvvəl məhkəmə istintaq orqanının vəsatəti əsasında onun barəsində psixoloji ekspertizanın keçirilməsi ilə bağlı qərar qəbul edib.

Qərara əsasən, Əhməd Əhmədovun saxlandığı təcridxanadan tibbi-ekspertizadan keçirilməsi üçün ixtisaslaşmış xəstəxanaya aparılmasına icazə verilib.

Əhməd Əhmədov 20 gün müddətində stasionar qaydada ekspertizadan keçirilib.

Qeyd edək ki, bu il fevralın 13-də 1999-cu il təvəllüdlü Əhməd Əhmədovun aralarında yaranmış mübahisə zamanı atası - 1972-ci il təvəllüdlü Mehman Əhməd oğlu Əhmədovu, anası - 1977-ci il təvəllüdlü Pikə Bədəl qızı Əhmədovanı və qardaşı 2015-ci il təvəllüdlü Məhəmməd Mehman oğlu Əhmədovu, bundan əvvəl başqa bir ünvanda isə bacısı - 1997-ci il təvəllüdlü Elmira Əhmədovanı və onun azyaşlı qızını qətlə yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adam öldürmə) və 120.2.7-ci (iki və ya daha çox şəxsi öldürmə) maddələrilə cinayət işi başlanıb, Əhməd Əhmədov prokurorluğun qərarı ilə iş üzrə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib.

# ADP siyasi siyasi məhbusların sayının artmasından narahatdır



## Partiya hakimiyyəti ölkədə insan hüquq və azadlıqlarına, alternativ fikrə sayqı ilə yanaşmağa çağırıb

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib.**

Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə ABŞ-Aİ-Ermənistan arasında keçirilən Brüssel görüşünün nəticələrinə münasibət bildirib. İdarə Heyəti Qərbin o cümlədən ABŞ-ın Qarabağ ermənilərinin Ermənistan ictimaiyyətinə inteqrasiyası ilə bağlı maliyyə dəstəyini təqdir edib və bunun yüz illərlə bu bölgədə davam edən etnik münaqişənin köklü həllinə töhvə verəcəyinə əminliyini ifadə edib: "Görüşdən əvvəl ABŞ dövlət katibi E.Blinkenin və Avropa Komissiyasının Prezidenti U.Lyayenin dövlət başçısı İ.Əliyevə telefon açaraq görüşün mahiyyətinə aydınlıq gətirməsi bu toplantının Azərbaycanın əleyhinə olmadığını bir daha sübut edir".

Bununla yanaşı, bu və digər platformalarda yalnız Gürcüstan və Ermənistanın ABŞ və Qərb tərəfindən dəstəklənməsi ADP-ni narahat edib. Və partiya yetkililəri Cənubi Qafqazda təhlükəsizliyin, əmin-amanlığın, qarşılıqlı əməkdaşlığın qorunması naminə bu üç dövlətlə bağlı ABŞ və Qərbin eyni mövqedən çıxış etməsini tələb edib. Partiya rəsmiləri bildirib ki, Qərbin Azərbaycanı kənarda saxlayaraq yalnız Gürcüstan və Ermənistanın inkişafına dəstək göstərməsi son nəticədə Cənubi Qafqazda tarazlığın pozulmasına gətirib çıxara bilər.

İdarə Heyəti İranın Bəlucistan və Cənubi Azərbaycan bölgələrinə fars kökənli əhalinin köçürülməsi nəticəsində həmin ərazilərdə yaşanan etnik qarşıdurmalardan və bu süni köçürmələrin etnik demoqrafik vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxaracağından ciddi narahat olduğunu bildirib və İran yetkililərini millətlərin fundamental haqlarına, milli, mədəni hüquqlarına qarşı sayqılı olmağa çağırıb.

İdarə Heyəti qardaş Qazaxıstan Respublikasında yaşanan su daşqınları nəticəsində əhalinin böyük kəsiminin çarəsiz vəziyyətə düşməsindən narahatçılığını ifadə edib və ölkə iqtidarını qardaş qazax xalqının bu ağır durumdan xilas edilməsi üçün bütün imkanları daxilində yardımlar göstərməyə çağırıb.

İdarə Heyəti son vaxtlar ölkədə siyasi məhbusların sayının artmasından ciddi narahat olduğunu bidirib və hakimiyyəti ölkədə insan hüquq və azadlıqlarına, alternativ fikrə sayqı ilə yanaşmağa, bu sahədə üzərinə götürdüyü beynəlxalq öhdəlikləri vicdanla yerinə yetirməyə çağırıb və dövlət başçısını humanistlik göstərərək, onları əfv etməyə səsləyib. İdarə Heyəti tanınmış rus politoloqu S.Markovun Azərbaycanda səfəri zamanı rus dilinin inkişafı üçün Azərbaycanı örnək gətirməsi, az qala ölkəmizdə rus dilinin ikinci dövlət dili səviyyəsinə qaldırmaq barədə səsləndirdiyi bəyanatlardan narahat olduğunu bildirib və ölkə ictimaiyyətini doğma dilimizi qorunması üçün səfərbər olmağa çağırıb.

İdarə Heyəti Qarabağ ərazisindəki Rusiya "sülhməramlı" qüvvələrinin işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsində iştirak edəcəyi ilə bağlı yayılan məlumatlara, eyni zamanda minatəmizləmə adı altında rus "sülhməramlı" qüvvələrin Azərbaycan ərazisində uzunmüddətli qala biləcəyi ilə bağlı aparılan müzakirələrə də münasibət açıqlayıb. İdarə Heyəti hesab edib ki, Rusiya "sülhməramlı" qüvvələrinin 2025-ci ildə mandatı başa çatır, həmin tarixdən sonra onların hər hansı bir ad altında Azərbaycan ərazisində qalması dövlətimizin və xalqımızın maraqları baxımından yolverilməzdir.

**Hazırladı: KƏNAN**

# "Crocus City Hall" teraktı ilə bağlı yeni faktlar

## Terorru həyata keçirən şəxslər təşkilatçının adını çəkdilər...

**Rusiyanın "Birinci Kanal" və "Rusiya 1" telekanalları Moskva yaxınlığındakı "Crocus City Hall"da terror aktı törətməkdə təqsirləndirilən dörd nəfərin dindirilməsinin görüntülərini yayıb.**



Hurriyyet.az xəbər verir ki, istintaq tacik əsilli Dalerjon Mirzoyevi, Raçabalizoda Saidakrami Murodalini, Fəriduni Şəmsidini və Məhəmmədsobir Fayzovu hücumun birbaşa icraçıları hesab edir. "Birinci Kanal"ın yayımladığı reportajda iddia edilir ki, təqsirləndirilən şəxslərdən terror aktını törətmək əmrini kimin verdiyini soruşduqda hamısı "Sayfullo"nın adını çəkiblər.Təqsirləndirilən şəxslərin sözlərinə görə, bu adam terakt iştirakçılarını tapıb, onları silahla təmin edib, hücumun hədəfini müəyyənləşdirib və qaçış planını hazırlayıb.

Təqsirləndirilən Məhəmmədsobir Fayzov isə videoda deyir ki, qruplaşmanın hər birinə Ukrayna ilə sərhədi keçdikdən sonra 1 milyon rubl vəd edilib. "Birinci Kanal" FSB məlumatlarına istinadla bildirir ki, Ukrayna terrorçuların sərhədi keçə bilmələri üçün iki dəhliz açıb. Məlumata görə, Rusiya xüsusi xidmət orqanları Ukraynada hərbçilərin Sumı vilayətinin sərhədyanı Çuykovka və Sopiç kəndləri yaxınlığında minalardan təmizləmə fəaliyyətini qeydə alıb.

"Rossiya 1" xəbər verir ki, bu, Ukrayna Silahlı Qüvvələrinin hərbi qulluqçuları və Ukrayna xüsusi təyinatlılarının zabitləri tərəfindən həyata keçirib. Telekanal qeyd edib ki, təqsirləndirilən şəxslərin olduğu avtomobil 170 km/saat sürətlə hərəkət edirmiş. Onlar Bryansk vilayətinin Kommuna kəndi yaxınlığında, Rusiya-Ukrayna sərhədinə 141 km qalarkən saxlanılıblar.

"Birinci Kanal" FSB məlumatlarına əsaslanaraq, "Crocus"da terror aktının hazırlanmasında Ukrayna tərəfinin birbaşa iştirakının olduğu qənaətinə gəlib. Xatırladaq ki, martın 22-də baş verən terakt zamanı 144 nəfər ölüb, 550-dən çox insan isə yaralanıb. Terror aktı ilə bağlı 11 nəfər həbs edilib.

**KƏNAN**

# İsrail Qəzzadan çəkildi, növbəti hədəf İrandır?

## Və yaxud Fransanın Odessaya qoşun yeritməkdə məqsədi nədir?

Belə məlum olur ki, türk Orta Dəhlizinə qarşı rəqib qismində "İran-dilli" ölkələrdən keçən "fars dəhlizi" irəli sürülür və onu İran ortaya atır. İlk növbədə İran bu dəhlizdə maraqlıdır və Tehran daha sonra onu Ermənistan və Gürcüstandan keçərək Qara dənizə, İraq və Suriyadan keçərək isə Aralıq dənizinə qədər uzatmaq istəyir. Göründüyü kimi, burada Vatikanın hər iki layihəsinin - İranla Fransanın niyyətləri üst-üstə düşür.



**İsrail 2024-cü ilin oktyabrından bəri başlatdığı Qəzza işğalını dayandırdı. Ordunun demək olar ki, bütün bölmələri Qəzza zolağından çıxıb. Konkret olaraq Tsaxal Qəzza zolağından 98-ci diviziyanın geri çəkildiyini elan etdi və bununla da müharibə başlayandan bəri ilk dəfə, demək olar ki, bütün diviziyalar Qəzzanı tərk etdi.**

Məlumata görə, artıq Qəzzada quru qoşunları qalmayıb, kütləvi hərbi əməliyyatlar və hava hücumları tamamilə dayandırılıb. Yalnız Tsaxalın sonuncu Nahal briqadası (diviziya 162) yeni Netzarim bufer zonasında - Qəzzanı iki sektora - şimal və cənuba bölən zolağın mərkəzində təhlükəsizliyi təmin etmək üçün Qəzzada qalıb. Amma bu törədilən kütləvi insan qırğınından sonra o anlama gəlmir ki, evlərindən didərgin düşən fələstinlilər geri qayıdacaq.

Bundan başqa, İsrail İranın Suriyadakı səfirliyinə zərbə endirdikdən sonra maraqlı nüans açıqlandı. İsrail İranın hücumu zamanı tarixdə ilk dəfə yeni tipli bombadan istifadə edə biləcəyini açıqladı. Tel-Əviv yaxın bir neçə gün ərzində İrana hücum edərsə, müasir nöb bombalardan istifadə edə bilər. Bu barədə "Maariv" təhlükəsizlik və müdafiə üzrə ekspertə istinadən məlumat yayıb.

**"Tarixdə ilk dəfə olaraq yeni tipli bomba istifadə olunacaq. Bu elektromaqnit bombasıdır (E-bomba). Tehrana və İranın digər böyük mərkəzlərinə qarşı istifadə olunacaq. Həmçinin, İranın nüvə obyektlərinin yerləşdiyi ərazilərdə də istifadə olunacaq",** - məqalədə qeyd edilir.

Bildirilir ki, bombanın özü bütün elektron cihazları məhv edə bilən elektromaqnit impulslar yaydığı üçün insanları birbaşa öldürmür. Bu o deməkdir ki, Tehranın infrastrukturunun böyük hissəsi dərhal fəaliyyətini dayandıra bilər.

Nədənsə, İsrail İrana ağır dağıdıcı zərbələr vurmq istəmir. Sözsüz ki, əslində bunu istəməyən İsraillə yanaşı, həm də ABŞ-dır.

Bir haşiyə çıxıb, mövzunun anlaşılmasında faydalı nüanslara nəzər salaq.

Bildiyimiz kimi, Roma Papası Fransisk Rusiya ilə Ukrayna arasında sülh danışıqlarına çağırdı və birbaşa bəyan etdi ki, uduzan tərəf "ağ bayraq" asmalıdır. Yəni müharibənin bitməsi təşəbbüsünü etdi. Hamı elə zənn etdi ki, Vatikanın rəhbəri Ukraynanı təslim olmağa çağırır. Vatikanla sıx bağlı olan Fransa lideri Emmanuel Makron Ukraynanın məğlubiyyətinə və kapitulyasiyasına imkan verməyəcəyini açıq şəkildə bildirdi. Söhbət Makronun Rusiya Federasiyasının müharibədə qalib gəlməsinin qarşısını almaq bəhanəsi ilə Ukraynaya qoşun yeritməyə hazır olması barədə bəyanatından gedir. Hərçənd, ikili oynayan Fransanın Rusiya ilə piştaxtaaltı oyunlarını istisna etmək olmaz.

Beləliklə, Ukraynanın qoşun yeritməyə hazır olduğu nöqtə Odessadır. Niyə Odessa? Odessaya yerləşmək Fransaya nüvə dövləti kimi Qara dəniz sahilində öz bazasını əldə etmək şansı verər. Hələlik Qara dənizdə yalnız bir nüvə dövlətinin - Rusiyanın belə bazaları var.

Fransa Qara dəniz sahilində baza əldə edərək, özünü yeni "hərbi forpostu"-Ermənistanın yerləşdiyi Cənubi Qafqaza yaxınlaşdırır. Bu ona İran və Hindistanla "hərbi ox" yaradan Ermənistanın həndəvərinə yerləşmək və Hindistandan gələn narkotik prekursorlarının İranda narkotik mala çevrildiyi, sonra isə Ermənistandan Gürcüstan vasitəsilə Qara dənizi "üzüb", Odessa limanına çıxan narkoticarət marşrutuna nəzarət imkanı verəcək. Eləcə də özünün silah ticarətini Ermənistana, oradan da İrandan keçərək Hindistana çatdırmaq imkanı qazanacaq.

Digər tərəfdən, məlum olduğu kimi, "Krokus Siti" terror aktından dərhal sonra ABŞ belə bir informasiya tirajladı ki, bu hadisəyə görə məsuliyyəti İŞİD-in Əfqanıstanda fəaliyyət göstərən "Vilayəti-Xorasan" təşkilatı öz üzərinə götürdü. Ümumiyyətlə, Xorasan vilayətinin tarixi coğrafi ərazisi İranın şimal-şərqini, Əfqanıstanın şimalını, Türkmənistanın cənubunu, Özbəkistan və Tacikistanın böyük hissəsini əhatə edir. İŞİD-in - "Vilayət Xorasan"ın iddia etdiyi tarixi "Böyük Xorasan"ın xəritəsinə baxmaq da çox maraqlıdır. Bu, əslində türk dövlətlərinin ərazilərindən, Çinlə Xəzər dənizi arasındakı dəhlizdən keçən Orta Dəhlizə alternativdir, sadəcə Xorasan xəritəsi cənubda yerləşən və "irandilli" ölkələrdən və bölgələrdən keçir. **Belə məlum olur ki, türk Orta Dəhlizinə qarşı rəqib qismində "İrandilli" ölkələrdən keçən "fars dəhlizi" irəli sürülür və onu İran ortaya atır. İlk növbədə İran bu dəhlizdə maraqlıdır və Tehran daha sonra onu Ermənistan və Gürcüstandan keçərək Qara dənizə, İraq və Suriyadan keçərək isə Aralıq dənizinə qədər uzatmaq istəyir. Göründüyü kimi, burada Vatikanın hər iki layihəsinin - İranla Fransanın niyyətləri üst-üstə düşür.**

Digər tərəfdən, məlum olduğu kimi, "Krokus Siti" terror aktından dərhal sonra ABŞ belə bir informasiya tirajladı ki, bu hadisəyə görə məsuliyyəti İŞİD-in Əfqanıstanda fəaliyyət göstərən "Vilayəti-Xorasan" təşkilatı öz üzərinə götürdü. Ümumiyyətlə, Xorasan vilayətinin tarixi coğrafi ərazisi İranın şimal-şərqini, Əfqanıstanın şimalını, Türkmənistanın cənubunu, Özbəkistan və Tacikistanın böyük hissəsini əhatə edir...

Bu arada Suriya və İraqda "İŞİD dastanı"nı yada salsaq, paradoksal nəticəni görməliyik. İŞİD faktiki olaraq bölgədəki əraziləri İran üçün "təmizlədi". İraq və Suriyada bir vaxtlar İŞİD-in nəzarətində olan ərazilər bu gün SEPAH-ın nəzarətindədir. Eləcə də İraqın əsas şəhərlərindən biri - Fransa və Böyük Britaniya arasında Birinci Dünya Müharibəsindən sonra "Osmanlı İmperatorluğunun mirası" olan Mosul şəhəri üstündə də mübahisə yaşanmışdı və Fransa Mosulu ingilislərə verməyə məcbur olmuşdu. Və bu gün məlum olur ki, nəinki İŞİD-lə döyüşlərdə dağıdılan Mosul "fransapərəst" İrana getməyib, hələ Aralıq dənizi ilə İran arasında dəhliz yaranıb və İran bu dəhlizi tarixi Xorasan torpaqları vasitəsilə Çinə doğru uzatmaq niyyətindədir. Yəni Orta Dəhliz Türk layihəsinin yerinə özünün Orta İran dəhlizini sırımaq niyyətindədir.

Sual olunur ki, Əfqanıstan və Tacikistandakı Xorasan Vilayəti üçün İŞİD-in İraq və Suriyada dizayn etdiyi oxşar aqibət hazırlanır? Üstəlik, tarixi "Böyük Xorasan"ın qərbi, yaxud "Kiçik Xorasan" İranın bir hissəsidir...

Lakin İranın digər ərazilərdə, ilk növbədə farsdilli Tacikistanda "gözü var". Ola bilsin ki, İranın maraq dairəsində olan Əfqanıstan bölgələrinə SEPAH-ı "soxuşdurmaq" üçün "Xorasan Vilayəti"ni şiələrə qarşı müharibəyə və repressiyaya təhrik etməklə fars dəhlizini açmaq planları var.

"Krokus Siti" terrorundan sonra taciklər Rusiyada gözdən düşdü və "günah keçisi" kimi meydanda "dar ağacına çəkildi". Bunun ardınca Türkiyə də Tacikistan vətəndaşları üçün vizasız rejimi ləğv etdi. Bu isə Mərkəzi Asiyada "farsdilli element" olan taciklərin İranın ağuşuna düşməsini asanlaşdıracaq. Çünki İran Tacikistana da nəzarət etmək iddiasındadır. İran və Fransa həm Ermənistana münasibətdə, həm də Yaxın və Orta Şərqdə geosiyasi tandemdədir.

Bu gün biz Fransanın Rusiyanı Ermənistandan "çıxarmasının" şahidiyik, lakin Tacikistanın növbəsi hələ çatmayıb. Sözsüz ki, Ermənistan bu gün Rusiyadan çox Fransa və İrana ümid bəslədiyi kimi, Tacikistan da yavaş-yavaş İran-Fransa "böyük ittifaq"na doğru, yəni Tehrana tərəf "yellənəcək". Təkcə, əhalinin mühüm qisminin taciklər və iranyönlü şiə həzaraların təşkil etdiyi Şimali Əfqanıstandan keçən "dəhliz açmaq" qalır və İran öz Xorasanı ilə Çinlə həmsərhəd Tacikistan arasında İran dəhlizini açmaqla qarşımıza çıxa bilər.

Əlbəttə, bütün bu yazılanlardan sonra sual oluna bilər ki, İsrailin Qəzzadan çıxması, oranı fələstinlilərdən təmizləməsi, İrana insanları öldürməyən, dağıntı törətməyən "elektron bombaləri" atması, ölkənin Suriyadakı səfirliyinə zərbə endirməsi arasında nə bağlantı var? İranın Suriyadakı səfirliyinə bomba atılması Tehrana İsrailə hücumun simvolu kimi Qəzzaya doğru hərəkət etmək bəhanəsi verər. Ələlxüsus, İsrailin "onu qıdıqlamasından heç cür vecdə gələ bilməyən İran" yalnız söz savaşı ilə kifayətlənir. İndi isə İsrail sünni məzhəbli müsəlmanların yurdu olan Qəzzanı şiə İran üçün təmizləyib. Necə ki, İŞİD İraqla Suriyanı İran üçün sünni müsəlmanlardan təmizlədi. Bu, həm də Türkiyəni Qəzza uğrunda, islam ümmətinin lideri olmaq uğrunda mübarizədən uzaqlaşdırar və onu "offsayt" duruma salar. Beləliklə, indiki vəziyyət illərdir nə Fələstin, nə Qəzza üçün barmağını belə tərpətməyən İran üçün "sinidə hazır gətirilən nemət"dir. Bu, bir daha onu təsdiq edir ki, mövzu Türk gücü olunca, Vatikan və ABŞ əlbir ola bilirlər.

**Ülviyyə ŞÜKÜROVA**



# Müdafiə Nazirliyində 1,9 milyonluq yeyinti...

## "Rövşən Əliyev deyirdi ki, bu qədər artıq yaz, biz də yazırdıq"

**Müdafiə Nazirliyinin (MN) Hərbi Polis idarəsinin, həmçinin bir neçə hərbi hissənin maliyyə-xidmət rəisi işləmiş və 1 milyon 900 min manat mənimsəmədə təqsirləndirilən Sadiq Hacıyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Hurriyyet.az xəbər verir ki, hakim Camal Ramazanovun sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs və şahidlər ifadə verib.

Müttəhim Sadiq Hacıyev məhkəmə iclasında özünü qismən təsirli bilib. O, deyib ki, maliyyə hesablamalarında səhv var. Bu barədə istintaqda da bildirib. Onun sözlərinə görə, xidmət etdiyi hərbi hissədə maliyyə yoxlamasının qeyd etdiyi rəqəmlərdə də səhv var imiş. Arxiv sənədlər məhv olduğu üçün bunu sübut edə bilməyib.

"Hərbi hissədə kartlar var idi. Pulları həmin kartlara vuraraq nağdlaşdırıb ələ keçirirdik. Pulların 70 faizini korpusun maliyyə xidmət rəisi Rövşən Əliyevə verirdim. R.Əliyev deyirdi ki, bu qədər artıq yaz, biz də yazırdıq. Bunlar barədə MN-in maliyyə-büdcə idarəsinin də xəbəri var idi. Birinci təftişə Rüfət Quliyev gəlmişdi. O, heç bir sənədə baxmırdı. Pulu Rövşən Əliyev bölürdü və ondan da 30 faizi mənə qalırdı, həmin puldan hərbi hissənin müəyyən xərclərinə də ayırırdım. İşlədiyim hərbi hissələrin birində 200 min manata qədər çatışmazlıq var idi. Hərbi Polis İdarəsində də eyni qayda ilə işləyirdik. İdarəyə təftişə Səfər Şıxəliyev gəlmişdi. Ona 45 min manat pul vermişdim. Hərbi Polis İdarəsində müəyyən olunan 772 min manat çatışmazlıqdan 90 min manatını xüsusi tapşırıqla verəmişdim", - o, bildirib.

S.Hacıyev istintaqda bildirib ki, mənimsənilən pullardan 20 faizi təminata, 40 faizi təftişə, qalanı da özlərinə qalıb.

Şahid Süleyman Abbasovun sözlərinə görə, təftiş vaxtı MN-in maliyyə idarəsinin maliyyələşmə şöbəsinin rəisi vəzifəsində işləyib. S.Hacıyevi xidmət vaxtı tanıyıb. Korpusun sabiq maliyyə xidmət rəisi Bayram Bayramovdan 520 min manat pul alaraq Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi Nizami Məmmədova verib. Mənimsənilən pullardan 64 min 580 manatı ona qalıb. Müəyyən miqdarını ödəyib qalanını da ödəyəcək.

Nazirliyin Maliyyə və Büdcə idarəsində, eləcə də Mənzil-İstismar idarəsində işləmiş Həsən Paşayev deyib ki, təftişə gələndə 18 min manat çatışmazlıq aşkar olunmuşdu:

"Çatışmazlığı Rafael Xələfova məruzə etdim, o, dedi ki, heç olmasa yarısını versin. Mən də Sadiq Hacıyevdən 9 min manat alıb R.Xələfova verdim. O, bidirdi ki, çatışmayan məbləği sənədə qeyd etməyim".

S.Hacıyev şahidin sözlərinə əlavə olaraq deyib ki, təftişçilər 18 min manat çatışmazlığı silmək üçün 9 min manat pul istəyib. Bu puldan korpusun maliyyə rəisinin xəbəri olmayıb.

Şahid S.Abbasov qeyd edib ki, onun dövlətə vurduğu ziyan 850 min manat məbləğində hesablanıb. Bu puldan müəyyən miqdarını ödəyib, qalanını da ödəyəcək.

Məhkəmə iclasında şahid qismində ifadə verən Səfər Şıxəliyev deyib ki, 2014-2019-cu ildə MN-in Nəzarət və Təftiş şöbəsində baş inspektor işləyib. Təftiş vaxtı 140 min manat pozuntu aşkar olunub. O, 47 min manat alaraq R.Xələfova verib. "Hərbi Polis İdarəsində 150 min manat çatışmazlıq aşkar etmişdik. Bu barədə R.Xələfova məruzə edəndə dedi ki, məbləğin 30 faizini al gətir. Rəis dedi ki, təftiş sənədlərinə təmiz yaz, mən də yazdım", - o bildirib.

Qeyd edək ki, Sadiq Hacıyev Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsi və bir neçə hərbi hissəsində maliyyə xidmətinin rəisi olub. O, Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə 1 milyon 900 min manat mənimsəməkdə ittiham olunur.

Xatırladaq ki, Sadiq Hacıyev Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general Nizami Məmmədov və digərləri barəsində olan 143 milyon manatlıq mənimsəmə ilə bağlı keçirilən məhkəmədə şahid qismində dindirilib.

# "Dedi ki, sən kol dibində yatmısan..."

## Qarabağ döyüşçüsü yol polisi tərəfindən təhqir olunduğunu iddia edir



**Naxçıvan MR, Şərur rayonunda anadan olan, hazırda Bakıda yaşayan 01.01.2001-ci il təvəllüdlü Abbasov Nihad Vidadi oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, martın 6-da, saat 08:30-da idarə etdiyi "Ravon R3" markalı maşınla "Hyunday Santa fe" markalı maşını vurub. Qəzadan sonra qarşı tərəf yol polisinə və sığorta şirkətinə məlumat verib. İstər sığorta şirkəti, istər də yol polisi əməkdaşları hadisə yerində şəkillər çəkdikdən sonra, zərəçəkən şəxslə birlikdə DYP-nin Binəqədi rayon şöbəsinə gediblər:**




"Biz hər ikimiz 10-cu otağa daxil olduq. Orada adını və soyadını bilmədiyimiz mülki geyimli şəxsə hadisə haqda məlumat verdik. O, günahın məndə olduğunu dedi və mən razılaşdım. Bundan sonra vurduğum maşının sahibi otaqdan çıxdı. Bu zaman həmin şəxs mənə dedi ki, günah səndədir, sadəcə, biz sənə ağır cərimə yazmaq istəmirik, amma sən bizə 100 manat verməlisən. Dedim ki, mən sizə pul verməli deyiləm, imkanım da yoxdur. O, israr etdikdə, İkinci Qarabağ savaşının iştirakçısı olduğumu dedim və güzəşt etməsini xahiş etdim. Dedi ki, yalan danışırsan, sənin pulun var. Bu zaman pul qabını açıb göstərdim ki, içi boşdur, sadəcə pensiya kartım var. Əlavə etdim ki, pensiya və valideynlərimin köməyi ilə dolanıram. Bundan sonra dedi ki, sənin veteranlığın da, o sənədlərin hamısı da saxtadır. Cavab verdim ki, heç bir sənədim saxta deyil, 2 medalım da var. Üstəlik, atam da veterandır, babam şəhiddir. Dedi ki, gətir sənədlərini göstər, sənə inanaq. Əks halda sən kimsən ki, biz sənə hörmət edək?!

Medallarım, sənədlərim və hərbi formam maşında idi. Gətirib göstərdim ki, bax, bunlar mənim medallarım, bunlar da sənədlər, filan yerlərdə döyüşmüşəm və s. Bütün bunlardan da əlavə, mən sizə rüşvət verə bilmərəm, cərimə nədir, yazın, çıxım gedim. Bilirdim ki, cərimə 40 manatdır, 10 gün müddətinə ödəsəm 36 manat edir. Yenə də dedi ki, sən bizə 100 manat verməlisən. Əlavə etdi ki, sənədlərin qalacaq, get pul gətir, çünki sənə inanmırıq, bu sənədlər saxtadır. Ona sənədlərimin saxta olmadığı haqda təkrar etiraz etdikdə, məni təhqir etdi. Dedi ki, sən kolun dibində yatmısan, sən kimsən ki, biz sənə hörmət edək?! Daha sonra medalları, pensiya kartımı, pul qabımı və digər sənədləri də özündə saxladı, "çıx çölə, mən heç kimi tanımıram", - deyə məni otaqdan qovdu.

Bundan sonra məsələ ilə bağlı rəisə müraciət etmək qərarına gəldim. Qapını döyüb, içəri girdim. O da məni təhqir edərək otağından qovdu.

Nəhayət, baş verənlərlə əlaqədar 102, 902, 161 xidmətlərinə məlumat verdim. Üstəlik, Prezident Administrasiyasına da getdim, baş verənlər haqda danışdım. Lakin heç bir xeyri olmadı".

Şikayətçi iddia edir ki, bir neçə gün sonra DYP-nin Binəqədi şöbəsinin rəisi və medallarını götürən şəxs zəng vuraraq, onlardan şikayət etdiyi üçün onu təhqir ediblər. Daha sonra başqa-başqa telefon nömrələrindən zənglər gəlib və onlar da onunla hədə-qorxu ilə danışıblar.

Qeyd edək ki, Nihad Abbasovun redaksiyamıza təqdim etdiyi telefon nömrələrindən biri ilə əlaqə saxlaya bildik. Bu zaman bəlli oldu ki, həmin şəxs baş inspektor, polis mayoru Azər Xanməmmədovdur. Əməkdaşımıza açıqlama verən A.Xanməmmədov N.Abbasovun heç bir əməkdaş tərəfindən təhqir olunmadığını, bunu sübut edən video-görüntülərin olduğunu vurğuladı: "Abbasov Nihad Vidadi oğlu Binəqədi ərazi-







sində yol nəqliyyat hadisəsi törədib. Belə ki, o, idarə etdiyi nəqliyyat vasitəsilə qaydaları kobud şəkildə pozaraq qəza törədib və digər sürücülərə zərər vurub. Araşdırma tələb olunan vaxt o, Qarabağ veteranı olduğunu bildirib. Daha sonra ona protokol tərtib olunamasın deyə sənədləri ataraq, çıxıb gedib. Hazırda sənədlər idarədədir. Dəfələrlə özü və əmisi ilə əlaqə saxlanılsa da, sənədlərin arxasınca gələn olmayıb. Özünə də deyilib ki, qanun nədirsə, ona da riayət olunacaq. Vətəndaş isə səbəbsiz yerə şikayətlər edir.

Onu da qeyd edim ki, burda təhqir və təhdid ediləcək bir məsələ yoxdur. Biz öz işimizi qanun çərçivəsində görmüşük. Vətəndaşı yığıb sənədlərini götürməsini istəyən hər bir əməkdaşımıza ancaq bu kəlmələri deyir: "Mən Qarabağ müharibəsi iştirakçısıyam, mənə güzəşt olunmalıdır, sənədlərimi özünüz gətirib verin". Biz tərəfdən də bildirilir ki, çox gözəl, biz də sizə hörmətlə yanaşırıq. Amma vətəndaş Nihad Abbasov onu da bilməlidir ki, qanun hər kəs üçündür.

Şəxsən mənim özüm ona zəng vuraraq sadəcə bildirmişəm ki, sizin Daxili İşlər Nazirliyinə müraciətiniz daxil olub, xahiş edirik, gəlib sənədlərinizi götürəsiniz. Vətəndaş yenə yuxarıda dediyim sözləri təkrar etmişdir. Vətəndaş bütün bu dediklərimi hüquqi şəxsə, icraçı köməkçilərə qarşı edib. Hətta orda kameralar da var. Vətəndaş istədiyi vaxt özü də gələ, yaxud da yaxın qohumunu sənədlərin arxasınca göndərə bilər.

Onu da qeyd edim ki, vətəndaşın ortalığa tökdüyü sənədləri ondan istəyən olmayıb. Biz sürücülük vəsiqəsi ilə protokol tərtib edirik. Şəxsin özünə mənim özüm və digər əməkdaşlar tərəfindən dəfələrlə zəng vurulub ki, gəlib sənədlərini götürsün, lakin cavab yoxdur".

**Hazırladı: Jalə FAMİLQIZI**



# Niyə hələ də Kremldən ehtiyat edirik?

## Mərkəzi Komitənin xeyir-duası ilə çəkilmiş psevdotarixi filmləri göstərməkdən indi də utanmırıq...



Firuz HAŞIMOV

*Zülmət sevər insanlarıq üç-beş yaşımızdan...*
**(M.Ə.Sabir)**

Bəli, iki qərinə ötməli idi ki, bizim basavad ağalar mart qırğınları zamanı qətlə yetirilmiş müsəlmanların sayı barədə alayarımçıq məlumatları xalqa çatdırsınlar. Əlbəttə, Qubada, Şamaxıda baş verənləri etiraf etmək kommunist banditlərə əl vermirdi. Dərd burasında idi ki, talan və taracda, qətllərdə iştirak etmiş saysız-hesabsız ruslar barədə danışmaq yasaq olunmuşdur, amma hər şeyi gizlətmək mümkün deyildi. Hamı bilir ki, Türkiyə cəbhəsindən geri dönən on minlərlə silahlı əsgər və zabit Azərbaycana tökülmüşdülər. Təşkilatlanmağı bacarmış erməni millətçilərə, bolşeviklərə də elə bu lazım idi.

Dini birlik də az rol oynamadı. Müsəlman torpaqlarında ara qarışıb, it yiyəsini tanımayanda, əlbəttə ki, pravoslav rus öz xaçpərəst erməni qardaşını müsəlmanın ayağına verməyəcəkdi. Bolşevik təbliğatçılar da susmurdular, onlar bütün imkanlı müsəlmanları qatı barışmaz sinfi düşmən elan etdilər. Bu azğınlaşmış rus əsgərlərinə işarə idi, yəni nəyi istəyirsiniz götürün, istismarçıların, müsəlmanların var dövləti halalınızdır.

1920-ci ildə isə rus, erməni, bolşevik, quldur və başkəsənlərinin aftafa-ləyənini gəzdirmək şərəfinə bizim milli satqınlar nail oldular. Qəzənfər Musabəyovdan başlamış, Əliheydər Qarayevə qədər böyük bir bandanın bütün əməlləri bəllidir. Gəncə kimi şəhər qana qərq olanda, iyirmi minə yaxın soydaşımız şəhadətə çatanda Çingiz İldırım Bakıdakı mitinqdə sevinə-sevinə nərə çəkirdi: “Gəncədə başıpapaqlı qalmadı!” Allahıma qurban olum, çox keçməyəcək ki, millətini arxadan vuranlar cəhənnəmə vasil ediləcəklər. Sözümün canı bu deyil.

...Baş vermiş dəhşətlərin unudulması, günahsız qurbanların sayının az göstərilməsi üçün rejim əlindən gələni etdi. Bu “nəcib” işdə onun sadiq köməkçisi bizim satqın qələm sahibləri idilər. 50-60 il ərzində hakim üsul-idarədən hər cür hörmət və qayğını görən bir yazıçı, bir şair, ya da qondarma tarixçi “rus” sözünü dilinə gətirmədi. Əksinə, millətin qatillərini məhd etməkdə bizim manqurtlar bəhsə girdilər.

Mart ayının son günlərində hamı xüsusi əmr almış kimi şəhər və kəndlərimizdə qətlə yetirilmiş müsəlmanların sayını az da olsa göstərməyə başladılar. Axı əsl həqiqəti rəhmətlik Əbülhəsəndən tutmuş, İlyas Əfəndiyevə qədər hamı bilirdi. Hamı da Səməd Vurğunun çıxdığı mərtəbəyə can atırdı. Sadəcə olaraq türk dünyasının birinci düşməni Leninə, Stalinə dastanlar qoşmaq və Şaumyan başda olmaqla millətin qanlı cəlladlarını tərifləmək lazım idi. Arada pambıq tarlalarında, kolxoz fermalarında əsl kölə kimi işləməkdən sər-sifətdən düşmüş qadınlara mahnılar həsr etmək məsləhət idi. Mən heç kimi qınamaq fikrində deyiləm. Hakimiyyətin yağ bal içində saxladığı Səməd Vurğun qürur hissi ilə Əhməd Cavada düşmən olmağını yazanda, Əli Vəliyevin nə cürəti vardı qatil Şaumyanı söyəydi? Yaltaqlığın, simasızlığın apofeozu sayıla bilən “26 Bakı komissarı” filmi bizdə çəkilmədi?

Anım günündə ümumi qətlamlardan hamı danışdı. Müqavimətdən söhbət belə getmədi. Bu nə deməkdi? Kəndlər dağıdılıb, evlər yandırılıb, körpələrin başları kəsilib, qızgəlinlər də təcavüzə məruz qalıblar və i.a. Burada on beş min öldürülüb, o biri şəhərdə isə on səkkiz min, filan məsciddə də neçəsi gülləboran edilib. Belə təəssürat yaranır ki, müsəlmanlar dilsiz-ağızsız qoyun sürüsü kimi durublar, heç kim adi balta, dəhrə ilə də olsa, arvad-uşağı qorumayıb.

Mən yaxşı bilirəm ki, indiki gəncliyə dədə-babasını belə dilsiz-ağızsız heyvan kimi göstərilməsi niyə lazımdır. Müqavimət olub, özü də istənilən səviyyədə. Bakının özündə qoçu Nəcəfqulu, Aşur bəy sadiq adamları ilə neçə-neçə müsəlman məhəlləsini rus matroslarından, daşnaklardan qoruya bilmişdilər. Minlərlə rus əsgəri erməni quldurlarla birgə nə qədər əlləşdilərsə, Sabunçudan o yana keçə bilmədilər. Abşeronun camaatı şir kimi qatillərin qarşısını aldı. Onlarla iri kəndi, Şamaxı kimi şəhəri tar-mar edib əhalini qıran Bakı komissarlarının mənfur dəstələri qədim Lahıca heç yaxınlaşmağa cürət etmədilər. Bura çox yağlı tikə sayılırdı. Sənətkarlıq mərkəzi olan bu yerin əhalisi zəngin idi.

Şirvanın iftixarı, Şamaxının qətl-qarətə məruz qaldığını bilən kimi hörmətli din xadimləri camaatı məscidlərə yığdılar...

Burada yazdıqlarımı ötən əsrin 50-ci illərində hələ də sağ olan şahidlərin ağızlarından qələmə almışam. Budur, həmin çıxışlardan biri: “Camaat, erməni kafirlər ruslarla əlbir olub üstümüzə gəlirlər. Hökumət filan yerli-dibli yoxdur. Namus-qeyrətimizi özümüz qorumalıyıq. Kafirlər Quranımızı yandırır, qadınların bellərinə qaynar samovar bağlayır, körpələrə də rəhm eləmirlər. Allahdan başqa bir pənahımız da yoxdur, cihada qalxırıq. Deyilənə görə, düşmən çoxdur, amma əsl müsəlman nə vaxt bundan çəkinib? Kişilər, kəfəniniz əyninizdəki paltar olacaq, elə buna görə də hamınız birbaş hamama, pak olun, dəstəmaz alın. Yolumuz din, iman, Vətən, Əli yoludur. Müqəddəs ələmlərin küçələrə çıxarılması vaxtı çatdı! Allahu-Əkbər!”

Lahıcın məşhur silahsazları, texniki təhsil almış mühəndislərlə əlbir olub külli miqdarda bombalar hazırlayıb, hətta top da düzəltdilər. Bu barədə məşhur yazıçı Manaf Süleymanov gözəl yazıb. Elə birinci toqquşmada erməni-rus birləşmələrinin rəhbərləri başa düşdülər ki, əhali son nəfəsinə qədər vuruşacaq məcbur olub geri çəkildilər. Bolşevik ideoloqlar da sonralar öz nəticələrini çıxartdılar. Onlar gördülər ki, qeyrətli din xadimləri vətənpərvər kübarlarla əlbir olanda yerli camaatla bacarmaq qeyri-mümkündür. Cəfakeş Şeyx Qəninin çıxışları indiyə kimi yaddaşlardan silinməyib. 1920-ci ildə XI ordunun başkəsənləri ağına bozuna baxmadan Bakıda soyğunçuluğa başlayanda....

Əcəldən aman olsa mən Şeyx Qəninin çıxışlarından danışacağam. Burada yazını dayandırıb əvvəlki mətləbə qayıtmaq istəyirəm. Bəli, müqavimət olub, bir tərəfdən silah-sursatın azlığı, bir tərəfdən də bolşevik təbliğatına uyanların kütlüyü, satqınlığı öz işini görüb. Bolşeviklər onu da gördülər, əsl vətənpərvər, savadlı din xadimlərinin kökünü kəsməyincə onlar heç nə edə bilməyəcəklər.

Elə buna görə də din xadimlərinin, mənəvi dəyərlərin gözdən salınması üçün bütün vasitələr işə salınmışdı. Yarım əsr ərzində millətin əlifbası dörd dəfə dəyişdirildi, ərəb əlifbası ilə yazılmış on minlərlə kitab əlyazma raritetlər yandırıldı. Yerliləri tərəfindən bütləşdirilən S.Vurğun sevinə-sevinə yazırdı: “Xəbər göndərilsin Ərəbistana, tonqalda yandırdı anam Quranı!” Belə yerdə məscidlər kolxoz anbarına döndəriləndə təəccüblənmək lazım deyil, cəzasızlıqdan, azğınlaşmış, komsomolçu şairlərin, tufan qopardıqları yerdə erməni, rus, bolşevik köpəklərin qırdıqları müsəlmanları yada salmaq yasaq olunmuşdu.

İllər keçdi, aləmlər bir-birlərinə dəydilər, bizim bir qələm sahibi hətta müstəqillik dövründə əsl həqiqəti açıb deməyə özündə kişilik tapmadı. Hələ indi də Mərkəzi Komitənin xeyir-duası ilə çəkilmiş psevdotarixi filmləri göstərməkdən utanmırıq.

*(Ardı var)*

Ölkəmizdə narkomaniyaya qarşı mübarizə çərçivəsində dövlət səviyyəsində tədbirlər görülür. Bu baxımdan, həm dövlət büdcəsindən maliyyələşən narkoloji mərkəzlər, həm də özəl reabilitasiya mərkəzləri səfərbər olunub. Amma bu da onu deməyə əsas vermir ki, mübarizənin tam qələbə ilə sonuclandığını düşünək. Dövlət narkoloji mərkəzlərində müalicə istənilən nəticəni vermir. Özəl reabilitasiya mərkəzlərində isə narkotikdən tam, yaxud uzunmüddətli remissiya əldə olunsa da, burada da kifayət qədər qüsurlar var. Bu səbəbdən, ekspertlər qeyd edirlər ki, dövlət tam təchizatlı və vətəndaşlara əlçatan olan reabilitasiya xidmətləri vermək üçün işə qarışmalı, o cümlədən özəl reabilitasiya mərkəzlərinə də nəzarəti dövlət həyata keçirməlidir.



## “Gündə bir villa götürüb, reabilitasiya mərkəzi kimi işlədənlər vətəndaşların sağlamlığına daha da çox zərər vururlar”

# "Bütün növ asılılarda “sağalma” sözü yoxdur..."

## Ramin Allahverdiyev: “O üzdən “saxlama müddəti” deyirik, “sağalama” sözündən narkomaniyada istifadə etmirik”

Bu arada, Bakı şəhərində iki böyük narkoloji xəstəxananın inşa edilməsi də tam yerinə düşdü. Odur ki, bu mövzular ətrafında asılılıq üzrə mütəxəssis, psixoterapevt, Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyevlə söhbətləşdik.

***- Ramin bəy, ölkəmizdə narkomaniyanın müalicəsi istiqamətində həm dövlət büdcəsindən maliyyələşən narkoloji mərkəzlər, həm də özəl reabilitasiya mərkəzləri fəaliyyət göstərir. Maraqlıdır, narkoloji dispanserlərdə 21 günlük müalicədən sonra birdəfəlik narkotikdən uzaqlaşma nəticələri mövcuddurmu?***

- Tək Azərbaycandakı dövlət narkoloji mərkəzlərində yox, bütün dünyada belə 21 günlük, yaxud şərti olaraq müddətli müalicə verən mərkəzlərdə narkotikdən uzaqlaşma deyilən bir proses yoxdur. Remissiya müddəti başlayır. O üzdən “saxlama müddəti” deyirik, “sağalama” sözündən narkomaniyada istifadə etmirik. Tək narkomaniyada yox, bütün növ asılılarda “sağalma” sözü yoxdur. Çünki asılılıq xroniki xəstəlik olduğuna görə, buna saxlama deyirik, sağalma demirik.

Artıq pasientimiz narkoloji mərkəzdən çıxandan sonra mərkəzdə nə dərəcədə psixoterapiyalar alıb, nə dərəcədə özünənəzarəti təmin edir, bir o qədər də remissiyanın müddəti uzun ola bilər. On il də, on beş il də ola bilər. Şərti olaraq qeyd edirəm, ömrünün axırına qədər də ola bilər. Bu o demək deyil ki, gedib narkotik istifadə edəcək. Amma mütləq burada prosedur narkoloji mərkəzin fəaliyyəti ilə kifayətlənməməlidir. Davamlı şəkildə müalicə həm medikamentoz, həm də psixoterapevtik, həm də sosial işin davamlı şəkildə həyata keçirilməsi ən vacib məsələlərdən biridir. Çünki narkoloji mərkəzdə əsas aparıcı xidmət detoksikasiyadır. Adından da göründüyü kimi, toksik maddələrin bədəndən çıxarılmasıdır. Orqanizmdən toksik maddələr həkim nəzarətində çıxarılır, şəxs ağrıdan xilas olur, bu 12-14 gün çəkir, bu müddətdən sonra həkim bir həftəlik, on günlük nəzarət müddəti təyin edir ki, görsün şəxsin davranışları, yuxu, iştah necə formalaşıb. 21 gündən sonra psixoterapiya başlayır. Narkoloji mərkəzdə belə bir konkret qayda yoxdur ki, şəxs 21 gündən sonra çıxmalıdır. Burada könüllü müalicədir, şəxs istədiyi vaxt çıxa bilər. Amma prosedur davam edirsə biz şəxsin vəziyyətinə, dəyişiminə, müalicənin effektivliyinə baxırıq, ondan sonra bu addımlar atılır ki, bəli, şəxs öz istəyilə evə buraxıla da, müalicəni davam etdirə də bilər. Bu artıq könüllüdür.

## “Vətəndaş istəyərsə, 21 gün sonra da müalicəni davam etdirə bilər”

***- Bəs detoksikasiyadan sonra xəstə psixoloji reabilitasiya üçün narkoloji mərkəzdə nə qədər qala bilər?***

- Əgər şəxs qalmaq istəyirsə, qanunvericilik onu tələb edir ki, şəxs qəti olaraq məcburi şəkildə narkoloji mərkəzdə saxlanılmamalıdır. 21 gün bitib, amma şəxs terapiyanı davam etdirmək istəyirsə, dövlət müəssisəsi olduğuna görə, vətəndaşın istəyi nəzərə alınır və müalicə davam edir.

***- Yəni şəxs dispanserdə qalır, yoxsa evə gedib gələrək müalicənii davam etdirir?***

-Burada belə bir məsələ var ki, Respublika Narkoloji Mərkəzində narkoloji xidmət ancaq stasionar şəraitdə həyata keçirilir. Şəxs mərkəzdə müalicə almalıdır. Əlbəttə, məcburi müalicə də ola bilər. Məcburi müalicə odur ki, mütləq hüquq-mühafizə orqanları tərəfindən şəxs narkoloji mərkəzə, komissiyaya yönləndirilir. Komissiya qərar verir ki, şəxsin məcburi müalicəyə ehtiyacı var. Şəxs davranış pozğunluğu sərgiləyə, oğurluq edə, ailədə diskomfort yarada bilər. Ancaq və ancaq birinci dərəcəli qohumlar tərəfindən müraciət həyata keçirilə bilər. Və digər hüquqi pozuntuları aşkara çıxarılarsa. İkincisi də könüllü müalicədir. 21 günlük müalicə faktoru könüllü müalicə alan vətəndaşlar üçün keçərlidir. Orada məcburi müalicə minimum 6 ay, maksimum 2 il müddətində məhkəmə tərəfindən təyin olunur. Amma 21 günlük, 12 günlük, yaxud digər şərti vaxt çərçivəsində baş tutan müalicə könüllüdür. Şəxs istədiyi vaxt deyir ki, qalmaq istəmirəm, ona görə onun tələbləri nəzərə alınmalıdır.

***- Səhiyyə naziri açıqlama verdi ki, Bakıda iki böyük narkoloji xəstəxana inşa edilir. Gözləntiniz nədir, bu xəstəxanalar da narkoloji dispanserlərdəki ənənəvi 21 günlük detoks və müalicə prinsipi ilə işləyəcək, yoxsa asılıların müalicəsində yeni yanaşma ortaya qoyulacaq?***

- Düşünürəm ki, cənab nazirin açıqladığı məsələ cəmiyyət üçün vətəndaşların əlçatanlığı baxımından çox faydalı bir proses olacaq. Məsələn, narkoloji mərkəzdə növbəyə dururlar, yer olmursa bu xəstəliyin irəliləməsinə, ağırlaşmasına gətirib çıxara bilir. İki böyük xəstəxana tikiləcəksə, müalicənin əlçatanlığı və daha rahat getməsi baxımından bu yerində verilən mükəmməl bir qərardır. Amma düşünürəm ki, dövlətimiz də inkişaf etmiş ölkələrdəki təcrübəyə uyğun olaraq, daha çox stasionar müalicə ilə paralel, həm də psixoterapiya, reabilitasiya, resosializasiya, əmək fəaliyyətinin yenidən bərpası, ailə münasibətlərinin qaydaya düşməsindəki professional tələbləri bu yeni mərkəzlərdə tətbiq etməyə çalışacaq. Əgər bu formada davam edəcəksə, düşünürəm ki, asılılıqla bağlı mükəmməl şəkildə mübarizə apara biləcərik.

***- Sizcə, iş preosesi özəl reabilitasiya mərkəzlərindəki kimi olacaq?***

-Özəl reabilitasiya mərkəzlərində iş əsasən “12 Addım” proqramı üzrindən aparılır. Amma dövlət nəzarətində olan iki xəstəxananın fəaliyyəti mütləq akademik əsaslı psixoterapiya ilə olacaq. Burada həm detoksikasiya olacaq, həm də detoksikasiyadan sonra şəxsin reabilitasiya prosesi həyata keçiriləcək.

Bir haşiyə çıxım ki, hal-hazırda Respublika Narkoloji Mərkəzində abmbulator reabilitasiya mərkəzi var. Bu nə deməkdir? Bu ambulator reabilitasiya mərkəzi bir il-bir il yarımdır ki, açılıb. Məsələn, həkim pasientin detoksikasiya prosesini edir. O pasient 14 gündən sonra anlaqlı vəziyyətə gələndən sonra narkoloji mərkəzin daxilindəki ambulator reabilitasiya mərkəzinə yönləndiririk. Şəxsdə müəyyən bir tənqidi fikrin formalaşması, korrektələr, konsultasiyalar həyata keçiririk, şəxs narkoloji mərkəzdən çıxanda ambulator şəkildə gəlib narkoloji mərkəzdə öz psixoterapiyasını alıb gedir. Həftədə bir dəfə, iki həftədən bir bu proses baş verir. Nə qədər effektivdir, nə qədər qalıcıdır, onu zaman göstərəcək. Amma narkoloji mərkəz tərəfindən bu xidmət həyata keçirilir.

***- İnanmaq istərdik ki, inşa edilməkdə olan yeni xəstəxanalarda müalicə 21 günlük yox, daha uzun müddətli və əhatəli olacaq. Daha professional yanaşma tətbiq ediləcək...***

- Bəli, düşünürəm ki, bu işlər dövlət tərəfindən nəzarətə alındığı təqdirdə daha effektiv olacaq. Azərbaycanda 200-ə yaxın reabilitasiya mərkəzi var. Reabilitasiya nədir - sıradan çıxmış vərdiş və bacarıqların aktivləşdirilməsidir. Burada sosial iş, psixoloq, psixoterapevt, “12 Addım” proqramı, dietoloq, hamısı kompelks, miltidisiplinar şəkildə işləməlidir. Ötən dəfəki müsahibəmizdə də qeyd etmişdim ki, mütləq şəkildə reabilitasiya mərkəzləri də olsa, dövlət nəzarətində professionallar tərəfindən həyata keçirilməlidir. Burada vətəndaşların əlçatanlığı və sağlamlıqla bağlı zəmanəti professionalların nəzarətində olmalıdır. Yoxsa gündə bir villa götürüb, reabilitasiya mərkəzi kimi işlədənlər vətəndaşların sağlamlığına daha da çox zərər vururlar.

***- Bu xəstəxanaların yüksək səviyyədə təchizatla təmin edilməsi ümumi işin xeyrinə və asılıların azalmasına nə qədər təsirli ola bilər?***

- Əlbəttə, bu ilk olaraq vətəndaşların hadisəyə professional və məntiqi tərəfindən baxışına yol açacaq. Burada şəraitin nəzərə alınması, professional kadrların çalışması, həkimlərin və psixoloqların bu mövzuya daha dərindən hakim olması, peşəkar yanaşma vətəndaşlara daha rahat olmalarını təmin edəcək. Bu, işin psixoloji tərəfidir. İnam və etibar baxımından, əlbəttə, bizim üçün vacib olan düzgün mütəxəssislərin yetişdirilməsidir. Mən bunu çıxışlarımda da qeyd etmişəm, düzgün mütəxəssislər olmadığı təqdirdə boşluqlar yaranır.

O ki qaldı şəraitə, hazırda Respublika Narkoloji Mərkəzində də stasionar şərait tələblərə uyğun olaraq təchizatlanıb. Bu işin daha çox tibbi prosesinin həyata keçirilməsini ön planda saxlayır. Psixoterapiyaların həyata keçirilməsi üçün bizim geniş təmirli otaqlara ehtiyacımız yoxdur. Psixoterapiyanın həyata keçirilməsi üçün oxuyan, araşdıran, akademik elmi bilikləri zəngin olan insanlara ehtiyacımız var. Məsələ bundadır. Bununla bağlı isə universitetlərimizdə tədris dövlət tərəfindən nəzarətdədir.

***- Sizcə, yeni xəstəxanaların iş əmsalının yüksəldilməsi üçün hansı ölkələrin təcrübəsindən istifadə olunmalıdır? Məsələn, İsraildə reabilitasiya mərkəzlərində müalicə olunan şəxslər sonra təhsilə, peşəyə, ehtiyacı varsa digər işlərə yönləndirilir...***

- Siz qeyd etdiyiniz təcrübə təkcə İsraildə yox, inkişaf etmiş ölkələrin əksəriyyətində, hətta 50-60 il bundan öncə həyata keçirilən təcrübədir ki, fərdi asılılığa xərclənən bu qədər maddi vəsait daha çox onların sosiallaşmasına, əmək fəaliyyətinin bərpasına, ailə münasibətlərinin daha effektiv olmasına yönləndirilir. Bu reallıq var. Amma bu bizim coğrafiya üçün, bizim adətənənəyə, bizim mentalitetə, yanaşma tərzinə hansı formada təsir edəcək, bununla bağlı uzunmüddətli tədqiqatlar aparılmalıdır. İsraildə, ABŞ-da, digər inkişaf etmiş ölkələrdə olan təcrübəni konkret olaraq burada bir günün içində tətbiq edə bilmərik. Bunun üçün tədqiqatlar aparılır, pilot layihələr təyin olunur və ortaq bir qərara gəlinir ki, bu modeli Azərbaycana gətirsək, ölkəmiz üçün daha effektiv olar.

O ki qaldı digər məsələlərə, əlbəttə, inkişaf etmiş ölkələrlə təcrübə bölgüsü, mütəxəssislərin təlimlərə yönləndirilməsi, müəyyən mütəxəssislərin Azərbaycana dəvət olunması, onların hansı modellərdən, hansı terapiyalardan, hansı texnikalardan istifadə etməsi - bunlar çox vacib məsələlərdir. Bir yenilik olduğu təqdirdə biz də mübarizə modellərini daha asan şəkildə ortaya çıxarırıq. 30-40 ildir ki, inkişafa yönümlü modellərə addım atmağa çalışırıq ki, asılılara mediakmentoz müdaxilə hansı formada yeniliklərlə tanış olub, psixoterapiya hansı yeniliklərlə tanış olub. Amma baxırıq ki, günügündən yeni model ortaya çıxır. Çünki bu ən aktual mövzulardandır.

***- Ola bilsin ki, yeni xəstəxanalar itirilmiş insan resurslarını geri qaytarmaq üçün bir mərkəz rolunu da oynayacaq.***

- Bəli, belə də olacaq.

**Hazırladı: İ.SABİRQIZI**

# Lalətəpə fatehi

## Şəhid mayor Rasim Məmmədovun anım tədbiri keçirilib



















**Babək Rayon Cəhri qəsəbə Musiqi Məktəbində şəhid mayor Rasim Məmmədovun anım günü keçirilib.**

Əvvəlcə Ulu Öndər Heydər Əliyev və suverenliyimiz, ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib. Tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səbinə Abbasova çıxış edərək bildirib ki, Naxçıvan torpağının igid oğlu Rasim Məmmədov Füzuli rayonu ərazisində yerləşən Lələtəpə yüksəkliyinin azad olunması əməliyyatında igidlik göstərərək şəhadətə yüksəlib. Xidməti dövründə mayor Rasim Məmmədov bir sıra fəxri fərman və medallarla, ölümündən sonra isə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda"medalı ilə və ölümündən sonra "Qüsursuz xidmətinə görə" 2-ci dərəcəli medalı ilə təltif olunub.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyeva qeyd edib ki, mayor Rasim Məmmədov birinci Qarabağ müharibəsində sağlamlığını itirən atasının yolunu davam etdirərək, qələbə qazanan oğullardandır.

Şəhidin anası Bəsti xanım övladı ilə bağlı xatirələrini bölüşüb. Şəhidin həyat yoldaşı Samirə xanım qeyd edib ki, Rasimin övladlarını ona layiq şəkildə böyüdür. Həyat yoldaşının xatirəsini hər zaman yaşatmağa səy göstərir. Vurğulayıb ki, Rasim Məmmədovun adına uşaq bağçası açıb. Həmin məktəbəqədər təhsil müəssisəsində qəhrəman şəhidlərimizə layiq vətənpərvər uşaqlar böyüyür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Fəxrəddin Səfərov Aprel döyüşlərində şəhid olan Rasim Məmmədovun üçrəngli bayrağımıza sarılıb Naxçıvana gətirildiyi gün qəhrəmanlığına layiq şəkildə qarşılandığından, onun xatirəsinin bu gün də yaşadıldığından bəhs edib.

Şəhidin qardaşı Şahin Məmmədov birinci Qarabağ müharibəsində Sədərəkdə sağlamlığını itirən bir atanın, Vətən torpağının azadlığı uğrunda canından keçən oğulun qardaşı olduğu üçün fəxr etdiyini bildirib, qardaşının döyüş yolundan bəhs edib.

Şəhidin ömür yoluna həsr olunmuş video çarxa baxılıb.

Sonda vətəpərvərlik mövzusunda mahnılar, şeirlər ifa olunub, ədəbi-bədii kompozisiya göstərilib.

Tədbirdən sonra Cəhri qəsəbə 2 nömrəli tam orta məktəbdə şəhidin adına verilmiş sinfin açılışı olub. Sonra qəhrəman şəhidin məzarı ziyarət edilib.

**Fuad MİRZƏYEV**

# Tarixə yazılan hünər



Şanlı tariximizin unudulmaz səhifəsinə çevrilən 44 günlük İkinci Qarabağ müharibəsində şücaət göstərərək, şəhidlik zirvəsinə ucalan ölməz qəhrəmanlardan biri də baş leytenant Vüsal Kamran oğlu Kazımovdur. Lənkəran elinin qeyrətli oğlu Vətənə ürəkdən bağlandığı üçün onun harayın birinci səs verənlərdən olub. Müharibənin ilk günündə sinəsini irəli verib, gözünü qırpmadan qartal tək yağının üstünə şığıyıb. Döyüşdən-döyüşə bərkiyən Vüsal ölüm-dirim savaşlarda erməni dığalarına qan qusdurub. Füzulidə, Cəbrayılda, Xocavənddə üç rəngli qələbə bayrağımızı ucaldan Vətən sevdalıların həmişə önündə gedib. Sonuncu dəfə - 26 oktyabrda ailəsi ilə əlaqə saxlayan Vüsal Kazımov Şuşanın azad edilməsi uğrunda döyüşlərdə qəhrəmanlıqla şəhid olub. Özü bu dünyadan getsə də, qısa, olduqca şərəfli ömür yolu xalqı üçün Vətənə, torpağa sonsuz məhəbbət mücəssəməsidir.

Vüsal Kazımov əbədi könüllərə köç etməklə həmişə insanlar tərəfindən ehtiramla xatırlanır. İndi Lənkəranda onun adına olan yadigarlar çoxdur. Bu günlərdə isə Astara Pedaqoji Kollecinin bir qrup əməkdaşı şəhid baş leytenant Vüsal Kazımovun ev muzeyini və uyduğu müqəddəs yeri ziyarət edib, fəxrlə ziyarət ediblər. Məzarına güllərdən çələng hörən ziyarətçilər bildiriblər ki, 1990-cı il dekabrın 17-si Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində anadan olan Vüsal Kazımov əzəl gündən Vətəninə sevdalı idi. Odur ki, erməni dığaların Qarabağ torpaqlarının işğalı onu narahat edirdi.

İki ali təhsil alan, ölümsüzlüyə qovuşan qəhrəmanımız Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına könüllü qatılıb və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərkən qəhrəmanlıqla şəhadətə qovuşub . Baş leytenant Vüsal Kazımov ölümündən sonra "Vətən uğrunda" , Xocavəndin, Füzulinin azadlığı uğrunda, "İgidliyə görə" medallarına, eləcə də 3-cü dərəcəli" Vətənə xidmətə görə" ordeninə layiq görülüb. Adı bütün Vətən üçün əziz olan Zəfər şəhidimizin yarımçıq arzularını cücərdəcək iki qız övlad vardır.

Bəli, Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edənlər heç vaxt ölmürlər. Vətən səmasında parlaq günəş olub əbədi ürəklərdə yaşayırlar.

**Zəfər ORUCOĞLU**




# Sahilin Vətən sevgisi

**Masallı rayonu, Ərəb kəndində dünyaya göz açan Sahil Sarıbala oğlu Babayev 19-20 sentyabr 2023-cü ildə Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror əməliyyatları zamanı Vətən uğrunda şəxsi igidlik, şücaət göstərərək şəhidlik zirvəsinə ucalıb. Şərəfli ölümü ilə adını qəhrəmanlıq tariximizə yazan Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenli Sahillə Babayevlə bütün Azərbaycan xalqı fəxr edir. Onun 31 illik ömür yolu gələcək nəsillər üçün də gözəl örnəkdir.**








Mənən qəlblərdə yaşayan, hər an xatırlanan, bütün sevgi, məhəbbətə layiq olan şəhid Sahil Babayevin 32 yaşı oxuduğu təhsil ocağında - Ərəb kənd ümumi orta məktəbində qeyd olunub. Tədbirdə şəhidin doğmaları və digər şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, Masallı Rayon İcra Hakimiyyətinin, rayon üzrə təhsil sektorunun, Xırmandalı kənd ərazi nümayəndəliyinin işçiləri, məktəbin müəllim və şagirdləri, kənd sakinləri iştirak ediblər.

Çıxışlar zamanı Lənkəran-Astara Regional Təhsil İdarəsi Masallı rayonu üzrə təhsil sektorunun müdiri Qoşqar Hətəmov, şəhid valideynləri Hafiz Qurbanov, Baloğlan Qasımov, Masallı Rayon İcra Hakimiyyəti başçısının Xırmandalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Məhəmməd Yusifov, şəhidin dostu, Vətən müharibəsi iştirakçısı Sabir İmanov, Sığıncaq kənd tam orta məktəbinin direktoru Əhliman Əliyev, Xırmandalı kənd tam orta məktəbinin müəllimi Qulu Gözəlov və başqaları Vətən müharibəsində, eləcə də antiterror tədbirləri zamanı qazanılan şanlı Zəfərdən və şəhid Sahil Babayevin keçdiyi şərəfli döyüş yolundan qürurla söz açıblar.

O da bildirilib ki, Sahili əsl insana xas olan mənəvi dəyərlərə, əxlaqi keyfiyyətlərə malik bir gənc kimi sevilirdi. Vətən, torpaq sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Bu müqəddəs yolu tutanlar heç zaman ölmürlər. Adında xalqının qəhrəmanlıq simvolunu yaşatmaqla ölümsüzlüyə qovuşurlar.

Şəhid Sahil Babayevin 3 övladı- Samir, Elçin, Milay yadigar qalıb. Qəhrəman ataları ilə qürur duyan övladların söylədikləri şer parçaları çox kövrək alınıb. Həmçinin məktəblilərin ifasında qəhrəmanlarla bağlı ədəbi-bədii kompozisiya nümayiş olunub, vətənpərvərlik mövzusunda şerlər səslənib.

Şəhidin atası isə oğlu Sahil və onun timsalında Vətən yolunda canından keçən bütün Azərbaycan övladları ilə iftixar keçirtdiyini deyib, tədbirin təşkilatçılarına və iştirakçılara, şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə minnətdarlığını bildirib.

Şəhidin məzarına baş çəkən ziyarətçilər xatirəsinə ehtiram əlaməti olaraq üzərinə gül dəstələri düzüblər.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# "ABŞ Rusiyanı Cən istəyirsə, İrəvanı



Məhəmməd Əsədullazadə: "Qərb və Rusiya Ermənistana dəstək verməklə Azərbaycanın sülh istəyinin qarşısını alır, halbuki yeni müharibə Ermənistan üçün daha acı nəticələrə səbəb ola bilər"



Elxan Şahinoğlu: "İsrail-İran gərginliyi, iki ölkə arasında toqquşma ehtimalı Ermənistanı Rusiyadan qorumaq mövzusunu arxa plana keçirib"



Rəşid Hacılı: "Bakı ilə Ankara Ermənistanda 3-cü ölkələrin hərbi varlığını istəmir, onun neytral ölkə kimi nə Rusiyanın, nə də ABŞ-ın forpostu olmamasında maraqlıdır"

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan yerli televiziyaya müsahibəsində bildirib ki, sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar zamanı artıq bir sıra qarşılıqlı razılaşmalara nail olunub. Bu barədə axar-.az-da yer alan informasiyaya görə, Mirzoyan bununla yanaşı, hələ də tərəflərin iki əsas məsələ haqqında fikirlərinin bir-birindən uzaq olduğunu qeyd edib: "Bizim Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması üçün həqiqətən tarixi imkanımız var. Ermənistan sülh gündəminə sadiqdir və danışıqlarda bütün məsələlərə konstruktiv yanaşır. Sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar zamanı biz artıq bir sıra qarşılıqlı razılaşmalara nail olmuşuq, lakin təəssüflər olsun ki, iki əsas məsələ var ki, onlar haqqında tərəflərin fikirləri hələ də bir-birindən uzaqdır. Birincisi, ərazi bütövlüyünün qarşılıqlı tanınması və sonrakı delimitasiya prosesinə aiddir. Ən azı 3-4 dəfə görüş oldu ki, orada tərəflər Almatı Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünün tanınmasını təsdiqlədilər və delimitasiya prosesinin bu əsasda baş tutmasını razılaşdırdıq. Dövlət katibi Blinkenlə telefon danışığı zamanı Azərbaycanın da bu bəyannaməyə sadiqliyi təsdiqləndi və mənə də qəribədir ki, biz sülh müqaviləsində bu bəyannaməyə istinad etməyə çalışanda Azərbaycanın istəksizliyini görürük. Ümid edirəm ki, yaxın gələcəkdə biz bu məsələdə daha dərin anlaşma əldə edə biləcəyik. İkinci əsas məqam infrastrukturun açılmasıdır". Demarkasiya və delimitasiya ilə bağlı işlərə gəlincə, Ermənistanın xarici işlər naziri əlavə edib ki, bu, ayrıca prosesdir, işçi görüşlər keçirilib və hazırda onların müzakirəsi üçün bir neçə variant var: "Ola bilsin ki, yaxın vaxtlarda irəliləyiş əldə olunsun".

Aprelin 5-də Ermənistanın baş nazir Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen və ABŞ dövlət katibi Antoni Blinkenin Brüssel görüşünə toxunan erməni professor, enerji təhlükəsizliyi üzrə ekspert Vahe Davtyan isə hesab edir ki, Brüsseldə Ermənistana konfet yox, konfet kağızı göstərdilər: "Çünki Avropa və ABŞ-ın 4 il ərzində verdiyi pul Ermənistanda bir dənə də olsun ciddi məsələni həll edə bilməz. Ermənistanın



suverenliyi və ərazi bütövlüyü satışa çıxarılıb. 270 milyon avro + 65 milyon dollar heç bir infrastrukturu inkişaf etdirə biləcək məbləğ deyil. Başqa sözlə, Avropanın Ermənistana iqtisadi marağı sıfırdır".

Enerji təhlükəsizliyinə gəlincə, erməni ekspert bildirib ki, Qərbin heç bir ölkəsində nüvə reaktoru və ya onların istismarı təcrübəsi yoxdur: "Belə iki ölkə var: Rusiya və Çin. Ermənistan sınaq meydançasına çevriləcək, çünki təcrübəsi olmayan ölkələr bizə modul qurğular təklif edirlər. Burada Litvanın təcrübəsini tətbiq etmək istəyirlər, amma bu cəfəngiyyatdır. Təbii ki, Paşinyana etimadsızlıq var, çünki Avropada axmaq yoxdur və onlar çox gözəl başa düşürlər ki, Ermənistan tamamilə antirusiya yolu ilə gedə bilməz. Avropada onlar çox gözəl başa düşürlər ki, İrəvan tamamilə Rusiyadan asılıdır və Avrasiya İqtisadi İttifaqından (Aİİ) çıxmaqla Ermənistan iqtisadi iflasa uğrayacaq, ictimai-siyasi böhran yaranacaq və onların planlarının heç biri reallaşa bilməyəcək.

> Enerji təhlükəsizliyinə gəlincə, erməni ekspert bildirib ki, Qərbin heç bir ölkəsində nüvə reaktoru və ya onların istismarı təcrübəsi yoxdur: "Belə iki ölkə var: Rusiya və Çin. Ermənistan sınaq meydançasına çevriləcək, çünki təcrübəsi olmayan ölkələr bizə modul qurğular təklif edirlər. Burada Litvanın təcrübəsini tətbiq etmək istəyirlər, amma bu cəfəngiyyatdır. Təbii ki, Paşinyana etimadsızlıq var, çünki Avropada axmaq yoxdur və onlar çox gözəl başa düşürlər ki, Ermənistan tamamilə antirusiya yolu ilə gedə bilməz.

Avropa da çox gözəl anlayır ki, Ermənistan hakimiyyəti sırf öz hakimiyyətini saxlamaq üçün manevr edir. Ermənistan Aİİ-dən çıxdığını və 102-ci Rusiya hərbi bazasının çıxarılmasını elan edəcəyi təqdirdə, bu, onlar üçün mühüm addım olacaq, görünür, bu, İrəvanın planlarında yoxdur. Başqa sözlə, iqtisadi və siyasi komponentləri nəzərə almaq lazımdır. Bəli, Qərb Paşinyanın göz yaşlarına inanmır. Onlar başa düşürlər ki, Paşinyan müəyyən qədər antirusiyalıdır. Bundan başqa, Ermənistanda Rusiyaya qarşı hərtərəfli avantüraya gedə biləcək hökumətin olduğunu düşünmürəm. Onlar bunu yalnız Avropada çox yaxşı başa düşülən informasiya səviyyəsində edə bilərlər. Aİİ-dən çıxsaq, əvəzində Avropa bazarını almadan nəhəng Aİİ bazarını itirəcəyik, çünki bu, uzun standartlaşdırma prosesi tələb edir. Ermənistanın qərbləşməsi bütün hesablamadan məhrumdur".

Digər erməni şərhçi Artak Akopyan isə hesab edir ki, İran-İsrail müharibəsi başlayarsa, rəsmi İrəvan Azərbaycanın Zəngəzurla bağlı istəyini yerinə yetirməyə məcbur olacaq. Akopyanın fikrincə, İran böyük müharibəyə girərsə, Zəngəzur bağlı tələbləri arxa plana keçəcək:

"Paşinyan Rusiya ilə münasibətlərimizi korladı. Bu halda yeganə ümidimiz İrandır. Tehran Ermənistan sərhədlərini "qırmızı xətt" elan edib. Əgər böyük müharibəyə başlasa, Azərbaycan Zəngəzurla bağlı tələbində daha da israr edəcək və bütövlükdə Zəngəzuru nəzarətə götürmək istəkləri də ola bilər. Bu halda Ermənistanı heç bir qüvvə müdafiə etməyəcək".

**"Əgər Rusiya Ukraynada qalib gələrsə, Nikol Paşinyanı bir sutka ərzində hakimiyyətdən salacaq və Qərbin bütün hərbi təlimatçılarını Ermənistandan qovacaq"**

Beləliklə, mövzu ilə bağlı mövqeyini "Hürriyyət"lə bölüşən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, ABŞ və Avropa İttifaqı Ukraynada Rusiya ilə geosiyasi toqquşmada fikir ayrılıqlarını aradan qaldıra bilməsə də, Ermənistana dəstəkdə ortaq mövqeyə malikdirlər:

"Kollektiv Qərb Ukraynada taktiki olaraq Rusiyaya qarşı hərbi müstəvidə məğlub olmaqdadır. Rusiyanı Cənubi Qafqazdan və Şərqi Avropada mövqeyini zəiflətmək üçün ən strateji platsdarm Ukraynadır. ABŞ burada Ukraynanı Rusiya ilə təkbətək buraxıb. Üç aydır ki, ABŞ-dan Ukraynaya silah göndərilmir. Amma Ermənistana hərbi təlimatçılar gəlir. Vaşinqton və Brüssel Cənubi Qafqazda guya Rusiyanı Ermənistandan çıxarır, Nikol Paşinyana siyasi və təhlükəsizlik dəstək ifadə edir. Halbuki, çox ciddi strateji səhvə yol verirlər".

Milli Cəbhə Partiyasının

# ubi Qafqazdan çıxarmaq sülhə məcbur etməlidir"

sədr müavininin fikrincə, əgər Vaşinqton Rusiyanı Cənubi Qafqazdan xüsusilə də Ermənistandan çıxarmaq istəyirsə, İrəvana ciddi təzyiq edib, Azərbaycanla sülhə məcbur etməlidir:

"Bununla da Rusiyanın Ermənistanda mövqeyi ciddi zəifləyəcək. Amma hazırda bunun əksinin şahidi oluruq. Əgər Rusiya Ukraynada qalib gələrsə, Nikol Paşinyanı bir sutka ərzində hakimiyyətdən salacaq və Qərbin bütün hərbi təlimatçılarını Ermənistandan qovacaq. Bu isə özlüyündə Azərbaycan və bütün region üçün ciddi təhlükə gətirəcək. Hesab edirəm ki, Vaşinqton və Brüssel Ukraynaya tam dəstək verməklə, Rusiyanı Ermənistandan növbəti mərhələdə çıxara bilər. Hazırda Qərb rəsmi Bakının üzərinə düşüb ki, guya Azərbaycan Ermənistan ərazilərinə müdaxilə edəcək. Həmçinin, Azərbaycanı demokratiya və insan haqları məsələsində tənqid edir. Halbuki, Ukraynada hər gün yüzlərlə insanın ölümünə seyirçi qalır. Kollektiv Qərb Ukraynaya dəstək olmaq əvəzinə, Cənubi Qafqazda əlavə problemlər yaradır. Ermənistan rəhbərliyi isə Qərbin Ukraynaya "dəstəyini" görmək istəmir, Azərbaycanla ikitərəfli danışıqlara getmək əvəzinə sərhəddə ordu yığır. Odur ki, Qərb və Rusiya Ermənistana dəstək verməklə Azərbaycanın sülh istəyinin qarşısını alır. Yeni müharibə isə Ermənistan üçün daha acı nəticələrə səbəb ola bilər".




### "Ermənistan Avropaya yaşıl enerjinin nəqli layihəsinə qoşulmaq üçün mütləq şəkildə Azərbaycanla sülh sazişi imzalamalıdır"

Brüsseldə Ermənistana maliyyə və informasiya dəstəyinin veriləcəyinin açıqlandığını xatırladan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə qeyd edib ki, ABŞ dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Jozep Borrell mətbuat qarşısında çıxışlarında Ermənistana təhlükəsizlik təminatı və ya hərbi yardım veriləcəyi barədə heç nə deməyiblər:

"Mümkündür ki, bu mövzu qapalı dairədə müzakirə olunub, hərbi yardımın indiki mərhələdə açıqlanması lazım bilinməyib. ABŞ və Avropa İttifaqı rəsmiləri Brüsseldə Qarabağ ermənilərinə maliyyə ayıracaqlarını bildirdilər. Bu maliyyənin Qarabağ ermənilərinin Ermənistan cəmiyyətinə inteqrasiya və yerləşməsi üçün ayrılacağı vurğulandı. Elə bizə də o lazımdır ki, Qarabağ erməniləri Ermənistanda qalıb yaşasınlar, çünki onlar geri dönüb Azərbaycan vətəndaşlığını qəbul etmək istəmirlər. Vaşinqton və Brüssel ermənilərin Qarabağa qayıtmayacağı reallığını qəbul edib. Beləliklə, ABŞ və Avropa İttifaqı Brüssel görüşü vasitəsilə Ermənistanı himayəsi altına aldığını elan etdi. Brüssel görüşünün əsas nəticəsi budur. Vaşinqton və Brüssel faktiki bəyan etdilər ki, Nikol Paşinyanın hakimiyyətini Rusiyanın təzyiqlərindən qorumağa hazırdılar. Ancaq Vaşinqtonun və Brüsselin Ermənistana ayırmağa planlaşdırdıqları maliyyə böyük deyil. Bu Ermənistanı Rusiyanın iqtisadi təzyiqlərindən qorumaq üçün kifayət etməyəcək. Rusiya Ermənistana satdığı qazın qiymətini artırarsa və ya ümumiyyətlə kəsərsə İrəvanın bu vəziyyətdən necə çıxacağı bəlli deyil. Təəssüf ki, Entoni Blinken və digərləri Brüsseldəki ortaq açıqlamalarında Ermənistanın Azərbaycanla sülh sazişi imzalaması vacibliyi barədə heç nə demədilər. Onlar Paşinyanın "sülh kəsişməsi" ideyasına dəstək verdiklərini söylədikləri halda prezident İlham Əliyevin daha geniş "Qafqaz evi" ideyasına münasibət bildirmədilər. Ursula von der Leyen onu da söylədi ki, Ermənistanın Qara dəniz sualtı kabel vasitəsilə Avropaya təmiz enerji nəqlində maraqlıdırlar. "Biz Ermənistanın "yaşıl enerji" istehsalına və Gürcüstanla daha yaxşı əlaqələnməsinə dəstək verəcəyik" - deyən Avropa İttifaqı rəsmisi bu mövzuda danışarkən layihənin əsas iştirakçısının Azərbaycan olduğunu söyləmədi. Halbuki, Avropaya yaşıl enerjinin nəqli ideyası Azərbaycana məxsusdur və Qara dənizin dibi ilə sualtı kabel çəkiləcək. Ermənistanın bu layihəyə qoşulması üçün mütləq şəkildə Azərbaycanla sülh sazişi imzalaması lazımdır, əks halda Qara dənizin dibi ilə ikinci sualtı kəmər çəkiləcək".

> Brüsseldə Ermənistana maliyyə və informasiya dəstəyinin veriləcəyinin açıqlandığını xatırladan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə qeyd edib ki, ABŞ dövlət katibi Entoni Blinken, Avropa Komissiyasının prezidenti Ursula fon der Leyen və Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali komissarı Jozep Borrell mətbuat qarşısında çıxışlarında Ermənistana təhlükəsizlik təminatı və ya hərbi yardım veriləcəyi barədə heç nə deməyiblər.

### "Vaşinqton və Brüsselin İrəvana ayırdıqları vəsait Ermənistanın Rusiyadan iqtisadi asılılığını azaltmağa kifayət etməyəcək"

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbərinin qənaətincə, İsrailin İranın Suriyadakı konsulluq binasına raket zərbəsi və nəticədə bu iki ölkə arasında artan gərginlik Brüsseldə ABŞ-Avropa İttifaqı-Ermənistan üçlü görüşünün əhəmiyyətini azaldıb:

"İran İsrailə zərbə vurmağa hazırlaşır. İsrail İranın mümkün həmləsini cavabsız qoymayacaq. Bu halda ABŞ müttəfiqi İsraili dəstəkləmək məcburiyyətində qalacaq. Bu arada, İrandakı mərkəzlərin İsrail-Azərbaycan əməkdaşlığına görə Bakını hədələməsi Vaşinqtonun və Brüsselin diqqətindən yayınmayıb. İsraillə tərəfdaşlığa görə İranın Azərbaycana qarşı hər hansı təxribatı olarsa, ABŞ və Avropa İttifaqı Azərbaycana dəstəklərini artırmalı olacaqlar. Bölgədə bunlar yaşanarkən, Ermənistanın baş naziri Nikol Paşinyanı Brüsselə dəvət edən ABŞ və Avropa İttifaqı rəsmiləri Azərbaycanı narazı salmamağa çalışdılar. ABŞ İran üzrə elçisini Bakıya göndərdi, dövlət katibi Entoni Blinken Brüssel görüşündən iki gün əvvəl prezident İlham Əliyevə zəng etdi. Vaşinqton və Brüssel rəsmi Bakının narahatlığını azaltmaq üçün diplomatik fəallıqlarını artırdılar. Təsadüfi deyil ki, Vaşinqton və Brüssel İrəvana təhlükəsizlik təminatı vədini vermədilər, ayırdıqları 250 milyon avro və 65 milyon dollar isə Ermənistanın iqtisadi problemlərini və İrəvanın Rusiyadan iqtisadi asılılığını azaltmaq üçün kifayət etməyəcək. Beynəlxalq aləm üçün əsas mövzu İsrail-İran gərginliyi, iki ölkə arasında toqquşma ehtimalı və bölgədə İsrailin tərəfdaşlarını qorumaqdır, Ermənistanı Rusiyadan qorumaq mövzusu arxa plana keçib".

### "İran ayətullahları ilə ABŞ-ı birləşdirən bir qırmızı cızıq var və bu da Ermənistandır"

Azərbaycan Media Hüququ İnstitutunun yaradıcısı, uzun illərdir Avropada yaşayan ictimai-siyasi fəal Rəşid Hacılı isə hesab edir ki, İran ayətullahları ilə ABŞ-ı birləşdirən bir qırmızı cızıq var və bu da Ermənistandır: "İrana Ermənistanı doğmalaşdıran başlıca səbəb onun anti-türk pazı roluna can atmasıdır. Yəni, Türkiyə və Azərbaycan arasında paz. Bu pazın son parçası Zəngəzurdur. Rusiya üçün də Ermənistan eyni alət idi. ABŞ və Avropa İttifaqının Ermənistana xüsusi dəstəyinin hədəfinin Azərbaycan olmadığını deyirlər. Bakıya Ermənistanın Rusiyaya qarşı direniş gücünü artırmağı hədəfləediklərini aşılamağa çalışırlar. Bu gün bu elə görünür. Amma sabah? ABŞ və Avropa İttifaqı Ermənistanda addım-addım gücləndikcə onu öz forpostuna çevirməyəcəkmi? Bu forpost kimə qarşı olacaq? İranamı qarşı? Bəlkə də İran rejimini şah rejiminə dəyişmək üçün. Ermənistan pazı ABŞ-ın da işinə yarıyacaq. Ən azı Azərbaycan və Türkiyə arasındakı bütün kommunikasiyaya nəzarət edəcək. Onları özündən asılı durumda saxlayacaq. Türkiyə ilə digər türk dövlərləri və xalqları arasında bağları nəzarətdə saxlayacaq. Həmçinin, İrandakı proseslərə də nəzarət edəcək. İranda mümkün rejim dəyişikliyinin Güney Azərbaycanın güclü siyasi subyektliyi ilə sonuclanmasını öz istəyinə uyğun şəkilləndirmək üçün imkan qazanacaq".

Rəşid Hacılının sözlərinə görə, Azərbaycan və Türkiyəni yaxın perspektivdə narahat edən budur: "Azərbaycanla Türkiyə Zəngəzurdan güvənli və maneəsiz nəqliyyat keçidi almaqla, eyni zamanda, qarşılıqlı iqtisadi-diplomatik əlaqələrlə Ermənistan pazını aradan qaldırmaq istəyirlər. Bakı ilə Ankara həmçinin, Ermənistanda 3-cü ölkələrin hərbi varlığını istəmir, onun neytral ölkə kimi nə Rusiyanın, nə də ABŞ-ın forpostu olmamasında maraqlıdır".

**Vazeh BƏHRAMOĞLU**

**Hindistan və Çin arasında "dünyanın emalatxanası" olmaq uğrunda gedən qlobal rəqabət yaxın illərdə yeni müstəviyə keçə bilər. Belə ki, hazırda Çin daha yaxşı "başlanğıc mövqeyinə" malikdir, lakin Hindistan bir çox göstəricilərdə bu ölkəyə "yetişir və üstələyir". Ən vacib resurs demoqrafik faktordur. Çində "öləziyən" çox şey artıq Hindistanda var. Elə əhali sayına görə də Hindistan Çini qabaqlayır.**




# Tacikistan uğrunda savaş

## Çin və Hindistanla yanaşı, İran da Rusiyadan "boşanan" bu ölkəyə göz qoyub...

Aparıcı dünya bazarlarına çıxışın asılı olduğu əsas nəqliyyat və tranzit kommunikasiyaları üzərində Çin və Hindistan arasında istər-istəməz rəqabət olacaq. Həm Hindistan, həm də Çin Mərkəzi Asiya və Cənubi Qafqaz vasitəsilə ərsəyə gələn Orta Dəhlizin istiqamət götürdüyü Avropa bazarına maraq göstərir. Məlum olduğu kimi, Hindistan Avropaya "öz dəhliz şəbəkəsi"ni yaratmaq istəyir ki, onlardan biri də İran-Ermənistan-Gürcüstan-Qara dənizdən keçir. Bu dəhlizi erməni lobbisi və Fransa fəal şəkildə lobbiləşdirir. Səudiyyə Ərəbistanı, İordaniya və İsraildən keçən başqa bir "Hindistan" dəhlizinə isə ABŞ lobbiçilik və "stavka" edir.

Bu baxımdan, trans-Avrasiya dəhlizlərinin yolunun üstünə qeyri-sabit "dövlətciklər" şəklində "saatlı bombalar" çoxdan qoyulub. Onlardan biri hamıya məlumdur - bu, son dərəcə aqressiv millətçi ideologiyası və qonşularının ərazisinə iddiası olan Ermənistandır. Avrasiyanın əsas nöqtəsində yerləşən ikinci, heç də az əhəmiyyətli olmayan dövlət Tacikistandır. Maraq doğuran nüans budur ki, 1924-cü ilə qədər Tacikistan adlı dövlət olmayıb. Bu ad altında inzibati qurum ilk dəfə 1924-cü ilin oktyabrında Özbəkistan SSR tərkibində muxtar respublika kimi yaranıb. 1929-cu ildə onun statusu ittifaq respublikası səviyyəsinə qaldırılıb.

Göründüyü kimi, əhalisinin demək olar ki, yarısının əslən türkdilli özbəklərdən ibarət olduğu farsdilli Tacikistanın yaradılması ingilislərin öz mülklərində və öz nüfuz dairəsində olan ölkələrdə başladığı "ariləşmə" kampaniyası ilə paralel baş verib. Təsadüfi deyil ki, Tacikistan SSRİ də "sıfırdan" yarananda İranda ingilislərin köməyi ilə 1925-ci ildə türk Qacarlar sülaləsi aradan qaldırılaraq, ölkənin farslaşdırılması və türklüyə aid hər şeyin sıxışdırılması kursunun götürülməsi ilə Pəhləvi sülaləsi hakimiyyətə gətirildi.

5 türk respublikasının və bir çox türk muxtariyyətlərinin mövcud olduğu SSRİ-də belə siyasət yürütmək istiqamətində tam kurs götürməsələr də, lakin onlar yenə də birincilərin "qədimliyini və mədəniyyətini" vurğulayaraq, "arilər" türklərə qarşı qoymağa başladılar.

Amma maraqlıdır ki, sovet lideri İosif Stalin 1941-ci il aprelin 22-də Kremldə Tacikistan incəsənəti ongünlüyünün iştirakçıları üçün keçirilən qəbuldakı çıxışında "tacikləri göylərə qaldırıb".

"Taciklər haqqında bir neçə kəlmə demək istəyirəm. Taciklər xüsusi xalqdır. Bunlar özbək deyil, qazax deyil, qırğız deyil, bunlar taciklərdir, Orta Asiyanın ən qədim xalqıdır. Tacik tac daşıyıcısı deməkdir, iranlılar onları belə adlandırırdılar və taciklər bu adı doğrultdular. SSRİ ərazisindəki bütün qeyri-rus müsəlman xalqları arasında taciklər yeganə qeyri-türk, iranlı xalqdır.Taciklər o xalqdır ki, onların ziyalıları Firdovsini yetişdirib və əbəs deyil ki, taciklər öz mədəni ənənələrini ondan götürürlər. Siz onillik ərzində hiss etməlisiniz ki, onlar - taciklər daha incə bədii duyuma, qədim mədəniyyətə və xüsusi sənətkarlığa malikdirlər. Zövq musiqidə, mahnıda və rəqsdə təzahür edir", - deyə İosif Stalin bəlağətli çıxışı ilə tarixə düşüb.



"Ari" Ermənistanın Azərbaycana qarşı təcavüzü hamıya məlumdur. Lakin 90-cı illərin əvvəllərində postsovet məkanında ən qanlı vətəndaş müharibəsi başlayanda Tacikistan da Mərkəzi Asiyada "qaynar nöqtə"yə çevrildi. Sonra Rusiya Tacikistanı öz təsir dairəsində saxlaya bildi. Amma bu gün zəifləmiş Rusiyanın Tacikistanı "itirəcəyi" ehtimalı yüksəkdir. Eynilə digər "ari layihəsi" Ermənistan kimi.

Paşinyan indi Rusiyanın əvəzinə Fransa, İran və Hindistanı Ermənistana "dəvət edir". Həmin İranın Tacikistanda maraqları var. Lakin onun bu ölkədə genişlənməsi ən gözlənilməz dairələrin müqavimətı ilə üzləşə bilər.

Çin yaxşı başa düşür ki, "ari keçmişi"ni vurğulayan dövlət ideologiyasının hakim olduğu "dünya emalatxanası" Hindistan Pekinin Avropaya tranzit yollarını kəsmək üçün "ari genetikasına əsaslanan dövlət layihələrindən" yaxşı istifadə edə bilər. Ona görə də geosiyasi vəziyyətin inkişaf məntiqi Çini Tacikistan istiqamətində genişlənməyə məcbur edə bilər. Və son vaxtlara qədər ÇXR üçün xarakterik olmayan hərbi genişlənmə kimi.

Bəzi ekspertlər hesab edir ki, Rusiyanın Mərkəzi Asiyadan çıxması fonunda Çin nəinki Mərkəzi Asiya ölkələri ilə hərbi əməkdaşlığı intensivləşdirməyə, həm də regionda öz hərbi bazalarını yerləşdirməyə məcbur olacaq. Və bunu məhz Orta Dəhliz tranzit marşrutunu bütün təhlükələrdən qorumaq üçün edəcək.

Çinin Mərkəzi Asiyadakı hərbi bazaları "Bir kəmər, bir yol"un fasiləsiz fəaliyyətini və marşrutun güzərgahı üzərində yerləşən dövlətlərin sabitliyini təmin edəcək.

> Çinin Mərkəzi Asiyadakı hərbi bazaları "Bir kəmər, bir yol"un fasiləsiz fəaliyyətini və marşrutun güzərgahı üzərində yerləşən dövlətlərin sabitliyini təmin edəcək. Həmçinin, Çinə İranla, ərəb ölkələri ilə quru "körpüsü" yaratmağa imkan verəcək. Bu "körpü" vasitəsilə Yaxın Şərqin enerji resursları da daxil olmaqla geniş çeşiddə mallar tədarük ediləcək. Birləşmiş Ştatlar bu "körpü"nü məhv edə bilməyəcək...

Həmçinin, Çinə İranla, ərəb ölkələri ilə quru "körpüsü" yaratmağa imkan verəcək. Bu "körpü" vasitəsilə Yaxın Şərqin enerji resursları da daxil olmaqla geniş çeşiddə mallar tədarük ediləcək. Birləşmiş Ştatlar bu "körpü"nü məhv edə bilməyəcək. Çinin Mərkəzi Asiya regionunda hərbi baza açmasına səbəb ola biləcək hərbi sahədə intensiv əməkdaşlıq regionun hərbi və iqtisadi cəhətdən ən zəif ölkəsi Tacikistandan başlayıb. Hansı ki, Tacikistan Əfqanıstanla ən uzun sərhədə malikdir.

Çin hərbi bazalarının regionun digər ölkələrində yerləşdirilməsi də nəzəri cəhətdən mümkündür. Çin hərbi obyektlərinin Mərkəzi Asiya ölkələrində yerləşdirilməsinin sürəti və qaydası həm ümumi geosiyasi vəziyyət, həm də hər bir konkret ölkənin Çindən iqtisadi asılılıq dərəcəsi ilə nizamlanacaq. Təbii ki, bu asılılıq nə qədər yüksək olsa, Pekinə bu və ya digər ölkədə hərbi bazalar yaratmaq bir o qədər asan olacaq. Ola bilsin ki, Tacikistanın ardınca Qırğızıstan, daha sonra Türkmənistan və Özbəkistan gələcək. Çin bazasının ölkəyə yerləşdirilməsinə nəzəri cəhətdən razılıq verə biləcək sonuncu şəxs Qazaxıstan olacaq. Amma işlər buna qədər gəlməyə də bilər. Qazaxıstan öz ərazisindən geosiyasi qarşıdurma üçün istifadə olunmasında maraqlı deyil.

Həmçinin, çox güman ki, ABŞ və Hindistan bacardıqca Çinin bu genişlənməsinə mane olacaqlar. ABŞ-ın Əfqanıstandan çıxarılmasından sonra bu geosiyasi qüvvələrin regiona birbaşa çıxışı olmadığı üçün İrandan "qaranlıqdakı maşa" kimi istifadə etmək tamamilə mümkündür.

İran ABŞ-la "rəsmi düşmənçiliyinə" baxmayaraq, Çinin Mərkəzi Asiya regionuna genişlənməsinə də qarşı çıxa bilər. Üstəlik, Tehranla Vaşinqton arasındakı bu "düşmənçilik" praktiki olaraq Ermənistanın ABŞ-ın nəzarətinə keçməsinə mane olmur. Lakin Paşinyan hökumətinin "Aİ və NATO-ya daxil olmaq" istəyinə baxmayaraq, İrəvan Tehrandan "qırılmağı" da düşünmür.

Ona görə də İran Çinin Mərkəzi Asiyadakı təsirini "neytrallaşdırmaq" üçün ABŞ-ın gizli razılığı ilə Tacikistana "daxil ola" bilər. Necə ki, məsələn, ABŞ İranın Səddam Hüseyn üzərində qələbəsinin bəhrələrindən, eləcə də ABŞ-ın iştirakı ilə Suriyada baş verən vətəndaş müharibəsinin nəticələrindən istifadə etməsinə "göz yumdu". Böyük ehtimalla İran Mərkəzi Asiyada Əfqanıstanın şimalından keçərək Tacikistana hərbi ekspansiyasına ABŞ və Hindistandan üstüörtülü dəstək var. Nəhayət, hər şey Çin və Hindistan arasında qarşıdurma ilə nəticələnə bilər ki, buna əvvəlcədən yaradılmış "Ari layihələri" də qoşulacaq. Məhz bu "Ari layihələri" gələcəkdə tranzit kommunikasiyalarında saat bombasına çevriləcək.

Bu cür mürəkkəb geosiyasi kombnasiyalar Ermənistanla Tacikistanın daxil olduğu "Ari qövsü" boyunca yeni müharibələr və münaqişələrə "hamilədir". Və qarşıda Tacikistan uğrunda ciddi mübarizə gözlənilir. Necə ki, hal-hazırda Ermənistan uğrunda bu mübarizə gedir. Bu ölkənin özündə terrorçu qrupların olması ehtimalı vəziyyəti daha da gərginləşdirir.

**Ülviyyə ŞÜKÜROVA**

# Problemlərin kökü harda gizlənir?

Cəmiyyətimiz üçün önəmli, əhəmiyyəti olan bir sıra sahələrdəki fəlakətli vəziyyətlərin səbəblərini soraqlayaraq, bu vəziyyətdən israrla çıxış yollarını arayan İ.Sabirqızının bu fədakar fəaliyyətini ancaq təqdir edib, alqışlamaq olar.

*(Əvvəli ötən sayımızda)*

Yüz ildən bəridir ki, dünyanın sivil hissəsində orta məktəb şagirdlərini, hətta yetkinlik yaşından yuxarı insanları - nəinki yüngül, habelə qatı cinayət törədən adamları qorxutmaq, zor tətbiq etmək vasitəsilə deyil, sivil pedaqoji üsul və vasitələrlə tərbiyə etməyə başlamış və əhəmiyyətli dərəcədə müvəffəqiyyət əldə edə bilmişlər. Birincisi, hər bir müəllim tədris etdiyi fənni əla bilməli, öz peşəsini sevməsi, hər bir şagirdin psixologiyasını, həmin fənn sahəsində qabliyyətini düzgün müəyyən etməli, hətta şagirdin ailədəki maddi, mənəvi, psixoloji atmosferə ən azı müəyyən qədər bələd olmalıdır ki, bu da məktəb və ailənin sıx təmasda olmasını tələb edir. Uşağın məktəbdə əsasını öyrəndiyi fənnin davamı və tamamlanması evdə başa çatır.

Məktəb və ailənin sıx təmasını tələb edən amil, sinifdəki və evdəki auranın bu prosessi müvəffəqiyyətlə başa çatdırılması, buna uyğun olarsa uşağın təhsil, təlim-tərbiyəsi o bir qədər də rahat və səmərəli başa çatar. Qorxutmaqla, qışqırmaqla, döyməklə uşaqda təhsilə qarşı ancaq ikrah hissi oyatmaq olar. Müəllimin ən əsas vəzifəsi tədris etdiyi fənni, elm sahəsini şagirdinə, tələbəsinə sevdirə bilməsidir. Müəllim bunu edə bilirsə, öz vəzifəsinin əsas işini görmüş olur. Valideynlərə öz uşaqlarına evdə təhsil verməyi tələb edən tanınmış təhsil eksperti, gərək evdə təhsil verilən uşaqlara kamal attestatının da kimin verməli olduğunu, dövlətin həmin attestatı tanıması qaydalarını da valideynlərə izah etməlidir.

Məktəblərdə artıq təhsil və tərbiyə verilməməsinə gəldikdə isə, həyatın başqa sahələri kimi təhsil sistemi də hər bir dövlətin quruluşunun məzmun və mahiyyətinə, cəmiyyətin inkişaf səviyyəsi və tələbinə uyğun məzmun və mahiyyətdə formalaşır. SSRİ-də mövcud olmuş dövlət quldarlığı quruluşunda dövlətin və vətəndaşlarının mövcudluğunun əsasını təşkil edən istehsal və tədavül sahəsindən sonra cəmiyyətin ictimai və şəxsi tələbatının ödənilməsində fövqəladə əhəmiyyəti olan təhsil və tibbi xidmət sahəsi də bu quruluşun məzmun və mahiyyətinin tələbatı səviyyəsində, həm də çox ciddi olaraq çərçivələnmiş qaydalarda mövcud idi. Bu gün ölkədə nəinki təhsil, tibbi xidmət sahəsi, istisnasız olaraq mövcud olan bütün sahələrdəki sistemlərdə qanunsuzluq, məmur özbaşınalığı, dövlət məmurlarının əhalini soyğunçuluğa məruz qoyması baş alıb gedir.

Ekspert haqlı olaraq məktəb direktorlarının öz öhdəliklərini yerinə yetirməkdə problem yaşadıqlarını qeyd edir. Məktəb direktoru da dövlət məmuru kateqoriyasına aiddir və özünün istəyib-istəmədiyindən asılı olmayaraq aşağıdan qanunsuz yığılaraq, hakimiyyət piramidası xətti ilə yuxarıya pul ötürmə prosesinin məcburi iştirakçısıdır. Bundan başqa, məktəb direktorunun özü və müəllimlər də də daxil olmaqla, ərzaq, sənaye mallları, kommunal xidmətlər və sairənin ildə iki dəfə 100 faiz artması şəraitində ən tezi əmək haqlarının ildə bir dəfə 10 faiz artması özünün və ailə üzvlərinin heç olmasa ən aşağı səviyyədə mövcudluğunu təmin etmək üçün, hətta bildiyini belə şagirdlərə öyrətməyib, özünün maddi durumunu heç olmasa minimum zəruri səviyyədə təmin etməyə görə repetitorluğa şərait yaratmaq məcburiyyətində qalır. Məktəb daxilində yaranmış fəlakətli vəziyyətin bir səbəbi budur.



Məktəbin daxilindəki bu duruma birbaşa təsir göstərən digər əsaslı səbəblər isə bilavasitə məktəb çevrəsindən kənardadır. Bunlardan ən əsası bütün təhsil sistemində müasir tələblərə cavab verən təhsil proqramının olmaması, mövcud təhsil proqramında şagirdlərə nə bu günkü, nə gələcək həyatında onlara zəruri olan heç bir bilik, vərdiş verə bilməyib, onlar üçün ağır yükə çevrilən fənnlərin mövcud olmasıdır. Bundan başqa, şagirdlərin gələcək həyatında, yəni ali məktəb və ondan sonrakı dövrdə onlara lazım olan informasiyaların olmaması da şagirdləri bu informasiyaları telefon və kompüter vasitəsilə internetdən axtarmağa məcbur edən əsas amillərdən biridir. Dərsliklərdə bu informasiyaların nə özü, nə də onların şərhi mövcud deyil.

İnkişaf etmiş ölkələrin təhsil proqramındakı fənnlərin məzmunu da ölkədə tədris edilən eyni fənnlərin məzmunu ilə kəskin fərqlənir. Məhz bu səbəbdən xarici ölkələrdə ali məktəblərə hazırlıq kursları, hətta ayrı-ayrı fənnlər üzrə təlim keçən fərdi müəllimlərin sayı günbəgün artmaqdadır. Bu da yuxarı sinif şagirdlərini məcburi seçim qarşısında qoyub, məktəbdən yayınmağa vadar edir. Yuxarı sinif şagirdlərinin xaricdə təhsilə can atmasının əsas səbəbi də ali məktəblərdə təhsilin orta məktəbdəkindən də fəlakətli vəziyyətdə olması, ali məktəbi bitirdikdən sonra belə qarşılaşacağı kəskin işsizlik probleminin mövcud olmasıdır. Nəinki ölkənin ali məktəblərini bitirənlər, hətta bu gün Avropanın ali təhsil müəssisələrini müvəffəqiyyətlə bitirib ölkəyə qayıdanlar arasında iş tapa bilməyib, özünün maddi varlığını təmin etmək üçün taksi sürücüsü və daha da xüsusi hazırlıq tələb etməyən işlərdə çalışanlar yetərincədir.

İnkişaf etmiş ölkələrin təhsil proqramındakı fənnlərin məzmunu da ölkədə tədris edilən eyni fənnlərin məzmunu ilə kəskin fərqlənir. Məhz bu səbəbdən xarici ölkələrdə ali məktəblərə hazırlıq kursları, hətta ayrı-ayrı fənnlər üzrə təlim keçən fərdi müəllimlərin sayı günbəgün artmaqdadır. Bu da yuxarı sinif şagirdlərini məcburi seçim qarşısında qoyub, məktəbdən yayınmağa vadar edir. Yuxarı sinif şagirdlərinin xaricdə təhsilə can atmasının əsas səbəbi də ali məktəblərdə təhsilin orta məktəbdəkindən də fəlakətli vəziyyətdə olması, ali məktəbi bitirdikdən sonra belə qarşılaşacağı kəskin işsizlik probleminin mövcud olmasıdır.

Ölkənin bu durumu gəncləri heç də ucuz başa gəlməyən xaricdə təhsil proqramları tədris edən kurslara, xaricdə təhsil aldıqdan sonra isə, orada yerləşə bilmək üçün bütün çətinliklərə dözsələr də, vətənə qayıtmamağa vadar edir. Bunun əsas səbəbi də ölkədə istehsal və xidmətin həm miqdar, həm də keyfiyyət baxımından çox aşağı səviyyədə olub, yüksək səviyyəli ixtisaslı kadrlara ehtiyacı olmaması, istisnasız olaraq bütün sahələrin inhisarda olması, nəticədə hakimiyyət piramidasında yuxarıdan-aşağıya mütəxəssislərin, ixtisaslı kadrların hazırlıq səviyyəsinə deyil, şəxsi sədaqətinə, onа özündən yuxarıda durandan verilən əmr, göstəriş, məsləhət, xahiş və s. məzmun, mahiyyət, nəticəsinə, qanunauyğunluğuna varmadan kor-koranə icra etməsi kimi xüsusiyyətləri, eləcə də qohumluq, tanışlıq, rüşvət və yerliçilik baxımından hər hansı bir vəzifəyə təyin edilməsidir. Belə insanların xidmətindən çoxsaylı cinayətlərdə istifadə edilərək cavabdehlikdən yaxa qurtarmaq mümkün olmadığı hallarda hakimiyyət yetkililərinə yaxınlığından asılı olaraq bir hissəsini ancaq vəzifədən azad etməklə (məsələn, Eldar Mahmudov, Zakir Qaralov), bir hissəsini vəzifəsini dəyişdirməklə sonda fəxri təqaüdə göndərməklə (Ramiz Mehdiyev, Ramil Usubov), bir hissəsini müvəqqəti həbs edib, qısa bir zamanda əvf edərək talan etdiyi böyük sərvətini əlindən alıb on milyonlarla ölçülən kiçik hissəsini özünə qaytarmaqla (Covdarov və s.), Səlim Müslümov kimilərin cəzasını şərti məhkumluğa çevirməklə, ən böyük rəislərə böyük biabırçılıq və təhlükə yarada, cəmiyyətdə üsyana səbəb ola biləcək informasiyalara malik olanlara isə çox ciddi nəzarət altında olan zindan kamerasında “özünü asmaq”, “xəstəlikdən ölməsi” ilə, hətta küçədə, evinin qarşısında naməlum terrorçunun güllələnməsilə problemlər həll edilir.



Orta məktəblərdə şagirdlərin tərbiyəsinin pozulmasına gəldikdə isə dövlət televiziyaları və hakimiyyətə bilavasitə yaxın olub, hakimiyyətin himayə etdiyi adamlara məxsus teleşirkətlərin proqramlarında cəmiyyətdə məşhur olan əxlaqsızlar vasitəsilə əxlaqsızlığın təbliğ edilməsi, internet resurslarında insanların mənəviyyatına, əxlaqına ölümcül zərbə vura bilən verilişlərin, videomateriallarin qarşısının dövlət tərəfindən məqsədli şəkildə alınmaması, cəmiyyətdə baş verən böyük miqyaslı, dəhşətli cinayətləri dilə gətirən, bütün bunların dövlətin, millətin taleyi üçün təhlükəli olduğunu cəmiyyətə bəyan edən insanların şər, böhtan vasitəsilə azadlıqdan məhrum edilib, fiziki, mənəvi, psixoloji terrora məruz qoyulması yetkin insanları mənəviyyatsızlığa sürüyürsə, hələ yetkinlik yaşına çatmayan məktəblilərin mənəvi, psixoloji, əxlaq durumunu pozması çox təbii haldır.

Narkomaniyanın məktəblərdə yayılmasına gəldikdə isə, sərhədd zonasına yaxşı bələd olan adamların yüzlərlə kilometrlə ölçülüb, ancaq tikanlı məftillərlə ayrılan, sərhəddlərdə ara-sıra qoyulan postlardan başqa xüsusi vasitələrlə qorunan bu böyük ərazilərdən çəkisi kiloqramlarla ölçülüb, ölkəyə keçirilməyə cəhd edilən narkotik maddələr tez-tez aşkar edilib qarşısı alına bilirsə, 3-4 ton ən bahalı narkotik maddə olan heroinin İrandan Azərbaycan ərazisinə maşınla gətirilib gömrük postundan keçərək Gürcüstan gömrüyündə, Ukraynada tutulması, narkotacirlərin ölkə ərazisində narkotik vasitələrin çox rahatlıq və asanlıqla satış şəbəkələrinin fəaliyyəti, ölkədə, o cümlədən ali təhsil müəssisələri və orta məktəblərdə belə, yayılmasında xüsusi maraqları olan çox yüksək məqamlı himayədarlarının olmasını məntiqi cəhətdən sübut edir. Yəni bütün hallarda, cəmiyyətin bütün istiqamətləri və sahələrində baş verən proses və hadisələrin mənbəyinin ölkədəki mövcud quruluşa bağlı olması aydındır. Ölkənin quruluşunun məzmun və mahiyyətini bu günə qoyan əsas və həlledici amil isə ölkə konstitusiyasında hakimiyyətin QANUNA deyil, məmura verilməsidir.

*(Ardı var)*

**Şapur QASİMİ**

Hazırda "narkotik böhranı" bəşəriyyətin ən böyük problemlərindən birinə çevrilib. Artıq narkomaniyadan xilas yolu qlobal səviyyədə aparılan müzakirə mövzusudur. Heç də təsadüfi deyil ki, planetin ən öndə gedən ölkəsi statusunu əlində saxlayan ABŞ kimi nəhəng ölkə də "narkotik burulğanı"ndan çıxa bilmir. Üstəlik, o da maraqlıdır ki, ABŞ başda olmaqla, bir sıra inkişaf etmiş ölkələrdə "narkotik epidemiyası"nın inkişaf meyarı fentanildən ölənlərin sayı ilə ölçülür...



# Supergücləri üz-üzə gətirən "fentanil epidemiyası"

## ABŞ və Çin narkokartellər qarşısında həqiqətən acizdir?..

*(Əvvəli ötən sayımızda)*

Çin fentanili xüsusilə aktual mövzu hesab etmir. Pekin ümumiyyətlə fentanil problemi olduğunu inkar edir və ABŞ tərəfindən haqsız yerə günahlandırıldığını iddia edir. Təsadüfi deyil ki, Çin 2022-ci ildə Nümayəndələr Palatasının keçmiş spikeri Nensi Pelosinin Tayvana səfərinə cavab olaraq, fentanillə bağlı ABŞ-la danışıqları kəsdi.

Lakin ABŞ rəsmiləri indi bir az daha pozitivdirlər. Noyabr ayında Çin lideri Si Tsinpin San-Fransiskoda Baydenlə görüşdə hökumətinin fentanillə bağlı danışıqları davam etdirəcəyinə razılaşdı: hər iki tərəf yanvar ayında problemi müzakirə etmək üçün bir araya gəldi. Çin rəsmiləri kimya firmalarına prekursorların ticarətinə qarşı sərt tədbirlər görəcəkləri barədə "müjdə" etdilər.

"The Economist" Ağ Evin daxili təhlükəsizlik üzrə müşaviri Liz Şervud-Randalldan sitat gətirilərək bildirdi ki, liderlərin görüşündən bəri Çin "hüquq-mühafizə orqanlarının əməkdaşlığını artırmaq və xüsusi kimya şirkətlərinin fəaliyyətini məhdudlaşdırmaq üçün konkret addımlar atıb". Dövlət katibi Blinken də deyir ki, bu, "amerikalıların həyatında real dəyişiklik etmək potensialına malikdir".

### Kimyəvi natarazlıq

Çində fentanil, met, ekstazi və digər narkotiklər hazırlamaq üçün istifadə edilə bilən çoxsaylı kimyəvi maddələrin satıcılarını tapmaq hələ də asandır. İnternetdə narkotik istehsalı ilə bağlı elanları "The Economist" aşkarlayıb. Məsələn, "Facebook"da prekursor istehsalı üzrə bir çox kompaniyaların olduğu Şimali Hebey əyalətində bir kimya firmasını təmsil edən "Libby" yanvar ayında fentanilin istehsalnda geniş istifadə olunan "N-tert-Butoxycarbonyl-4-piperidone" kimi kimyəvi maddələr təklif edən bir mesaj yerləşdirib. Ödəniş kriptovalyuta ilə tələb olunur - kiloqramı 200 dollar. Bildirilir ki, məhsul müştərinin qapısına çatdırılacaq və bütün gömrük prosedurları satıcı tərəfindən həyata keçiriləcək (yəni bunu ölkənizdəki səlahiyyətli orqanlara bildirməyin).

Göründüyü kimi, Çin üçün prekursor ticarətini cilovlamaq çətindir. Çünki ölkədə geniş kimya sənayesi var. Prekursorlar istehsal edən şirkətlər çox vaxt yerli məmurların himayəsindən istifadə edirlər: onlar iş yerləri və vergi gəlirləri yaradır və rüşvət verməkdən məmnundurlar. Firmalar qıvraq və elastikdirlər. Hökumət prekursorları daha çox qadağan edərsə, bu işi eyni şəkildə görə bilən, lakin hələ qadağanın onlara çatmadığı digər kimyəvi maddələr istehsal edəcəklər. Amerikalılar isə istəyirlər ki, Çin "müştərini tanı" rejimini qəbul etsin, bu da satıcıların mallarının cinayətkar qruplar tərəfindən istifadə olunmamasını təmin etsin. Başqa sözlə, fentanil prekursorları kimə gəldi yox, rəsmi tərəfdaşa satılsın. Bu halda narkotik dövriyyəsinə nəzarət də oluna biləcək.

Pekin isə israr edir ki, kimyəvi maddələrin qanuni şəkildə istifadə olunmasına nəzarəti idxalçı, yəni malı alan tərəf etməlidir. Çin teztez fentanil məsələsində ABŞ-ı suçlayır. Oktyabr ayında Çinin Meksikadakı səfirliyi açıqlamışdı ki, Çin fentanil tipli maddələrin qeyri-qanuni istehsalının, ticarətinin və sui-istifadəsinin qarşısının alınmasında mühüm rol oynayır. O, ABŞ-ı Çinin fentanil böhranındakı rolu ilə bağlı "əsassız neqativ ifadələr" verməkdə və "beynəlxalq qanunun aliliyi ruhunu tapdalamaqda" ittiham etmişdi.

Fentanil məsələsində Çin-ABŞ əməkdaşlığı fasiləsiz davam etsə belə, tədarük zəncirləri həmişə öz işindədir. Amma məsələnin başqa maraqlı tərəfi var - bu yaxınlarda Hindistanın fentanil hazırlamaq üçün istifadə edilən bəzi kimyəvi maddələrin alternativ mənbəyi olması ortaya çıxdı. Bu məsələni tənzimləyənlərin Çin kimi eyni siyasi problemləri yoxdur, lakin onlar da yetərli qədər səmərəli olmaya bilərlər. Bundan başqa, bəzi prekursorlar indi Amerikanın özündən keçərək Çindən Meksikaya axır, çünki bu marşruta daha az nəzarət var.

### Ağrı dünyası

2023-cü ilin iyul ayında ABŞ bu tendensiyaları nəzərə alaraq sintetik narkotiklərlə mübarizə üçün "qlobal koalisiya" yaratdı. Ilk virtual görüşdə 80-dən çox ölkədən yüksək vəzifəli şəxslər iştirak etdi. Çin iştirakçılar arasında olmayıb. Lakin Vaqşinton ümid edir ki, bunun təkcə onun problemi olmadığını, bəlkə də gec-tez Çini də narahat edəcək qlobal səviyyəli problem olduğunu başa düşməyə başlayanda onun baxışı dəyişəcək. "Əgər bir ölkə yalnız tranzit ölkə olduğunu və buna görə də fentanil bəlasından sığortalanmış olduğunu düşünürsə, dəhşətli və faciəvi şəkildə yanılır. Biz tranzit ölkələrin təyinat ölkələrinə çevrildiyini gördük. Meksika bizim qədər kəskin əziyyət çəkmir, lakin şübhəsiz ki, fentanildə artım müşahidə olunur", deyə Mayorkas bildirir.

Fentanilin və onun kimi sintetik narkotiklərin necə yayılması istifadəçilərin onların hansı növünü seçməsindən yox, narkotik tacirlərinin haqq-hesablarından asılıdır. Çox vaxt istifadəçilər belə, hansı narkotikləri qəbul etdiklərini bilmirlər. Satıcılar ticarət həcmini və narkotikin effektivlik təsirini artırmaq üçün fentanili heroin, met və ya kokain ilə qarışdıra bilərlər. Amma bu işdə ehtiyatsızlıq və naşılıq "qaynar nöqtələr"lə - istifadəçinin aşkar edə bilməyəcəyi ölümcül fentanil konsentrasiyası ilə nəticələnə bilər. ABŞ-ın analitik mərkəzi olan "Brookings İnstitutu"nun əməkdaşı Vanda Felbab-Braun qeyd edir ki, kokainin 1990-cı illərdə də Avropaya çatana qədər Amerikanı süpürməsindən on ildən çox vaxt keçib. O deyir ki, bu, istehlakçı zövqlərinin dəyişməsinin deyil, Meksika kartellərinin yeni bazar tapmaq qərarının nəticəsidir. Xanım Felbab-Braun iddia edir ki, onlar sintetik opioidlərlə də eyni şeyi edəcəklər.

Avropa hazırda xüsusilə cazibədar hədəf kimi görünə bilər, çünki Əfqanıstanda Taliban rejiminin tiryək xaşxaşı becərilməsinə etdiyi təzyiqlər Avropaya heroinin tədarükünü azaldıb və beləliklə də narkomanları alternativ həll yolu axtarmağa məcbur edib. Ümumi mənada, narkotik tacirlərinin fentanil kimi sintetik narkotikləri heroin və kokain kimi bitkilərdən əldə edilənlərə nisbətən yayması üçün stimulu var. Çünki fentanil hər yerdə hazırlana bilər və bu, hansısa ölkədə yağışdan, yaxud siyasi iqlimdən asılı deyil.

2023-cü ilin ilk yarısında 4000-ə yaxın opioid ölümünün olduğu Kanadada da fentanil istifadəsi artıq yayılmaqdadır ki, bu da bir ilin eyni dövrü ilə müqayisədə 5% çoxdur. Meksikanın şimalında QHT-lərin iştirakı ilə son meyit yarılmaları göstərib ki, morqa gətirilən cəsədlərin ən azı üçdə birində fentanil izləri var. İngiltərədə nitazen adlı sintetik opioidin törətdiyi ölümlərin tüğyan etməsi müşahidə edildi.




Amerika təcrübəsi bu ölkələr üçün xəbərdarlıq olmalıdır. 2022-ci ildə Bayden xalqa çıxışında "birlik gündəliyi" adlandırdığı şeyi ortaya qoydu və ilk məqsədinin "opioid epidemiyasını məğlub etmək" olduğunu söylədi. "Milli Narkotiklərə Nəzarət Siyasəti İdarəsi"nin (maraqlıdır niyə narkotiklərin aradan qaldırılması, yaxud son qoyulması yox, Narkotiklərə Nəzarət Siyasəti İdarəsi) məlumatına görə, narkotiklərə nəzarət üzrə federal xərclər 2008-ci ildən bəri iki dəfədən çox artıb. Bayden administrasiyası həmçinin "metadon" və "buprenorfin" kimi opioid asılılığının sübut olunmuş müalicə üsullarına qoşulmağı asanlaşdırıb. Metadon, abstinensiya simptomlarını və daha güclü narkotiklərə olan istəyi azaldan daha yumşaq bir opioiddir, əvvəllər yalnız klinikada nəzarət altında qəbul edilə bilərdi. Lakin 2023-cü il qüvvəyə minən yeni qayda xəstələrə onu evdə qəbul etməyə imkan verəcək və alıcının ən azı bir il ərzində opioidlərə aludə olduğunu sübut etməli olması tələbini ləğv edəcək.

Bayden administrasiyası həddindən artıq dozadan zəhərlənmə halında padzəhər olan naloksonun əldə edilməsini asanlaşdırmaq üçün də çalışıb. İndi nalokson apteklərdə reseptsiz satıla bilir.

Bayden administrasiyasının "narkotik çarı" Rahul Qupta deyir ki, son məqsəd naloksonu ictimai yerlərdə olan yanğınsöndürən balonlar kimi bir aksessuar etməkdir. Lakin müalicə və profilaktika proqramları təkcə federal hökumətdən deyil, həm də ştatlardan və yerli hakimiyyət orqanlarından asılıdır. Məsələn, Vayominq əyalətində metadon təklif edən opioid müalicə proqramları yoxdur. Ştatlar 1990-cı və 2000-ci illərdə reseptli opioid həblərinin geniş istifadəsini təbliğ edən və bununla bir çox amerikalıları narkotiklərə cəlb edən əczaçılıq şirkətləri və distribyutorlardan kompensasiya kimi milyonlarla dollar almağa başlayır. Bu səbəbdən, 50 milyard dollardan çox vəsait ayrılacaq ki, bu da müalicənin tüğyanına səbəb ola bilər. "Capstone Partners" konsaltinq şirkətinin proqnozlarına görə, bu cür xidmətlər bazarı 2030-cu ilə qədər hər il təxminən 9% artacaq.

Məktəblərdə narkomaniyaya qarşı maarifləndirmə kimi profilaktika səylərinin maliyyələşdirilməsi də 2008-ci ildən bəri təxminən iki dəfə artmışdır, baxmayaraq ki, bu, hələ də ümumi anti-narkotik xərclərin yalnız kiçik bir hissəsini təşkil edir. Tədqiqatçılar belə nəticəyə gəliblər ki, 1980-1990-cı illərdə narkotiklərdən istifadəyə müqavimət üçün maarifləndirmə proqramı yaxud polis məmurlarının siniflərə girərək uşaqlara narkotiklərə "sadəcə yox demələrini" gərəkdiyini söyləməsi narkotik istifadəsini azaltmadı. Ancaq fentanil ilə hər şey fərqli ola bilər. Bunun əvvəllər istifadə edilən hər şeydən nə qədər təhlükəli olduğunu gənclərə öyrətmək çox vacibdir. Opioidin digər dərmanlarda olub-olmadığını müəyyən edə bilən fentanil test çubuiqlarının istifadəsini təşviq etmək də həyatları xilas edərdi.

Bütün bunlar nə qədər məntiqli olsa da, dünyanın hələ getməli olduğu çox yol var. Misal üçün, ABŞ-da ən azı 6 milyon opioid aludəçisi var. Hər on amerikalıdan dördü həddindən artıq dozadan ölən birini tanıyır. Epidemiyanın nisbi sakitliyini görmək xoşdur, lakin fentanil Amerikanın indiyə qədər üzləşdiyi ən ölümcül bəlalardan biri olaraq qalır.

**Hazırladı: İ.SABİRQIZI**

**Bakı şəhəri, Sabunçu rayonu, Muxtar qəsəbəsi, Əmir Bağırov küçəsi 25-də yaşayan Əliyev Xalid Paşa oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi deyir ki, 2012-ci ildə 12 min dollara (köhnə məzənnə ilə təxminən 9360 manat) birinci əl "Chevrolet Aveo" markalı avtomobil alıb. Bu zaman ilkin ödəniş olaraq 4500 manat ödəyib, qalan məbləği hissə-hissə ödəmək üçün avtomobili "Bank VTB"-nin İsmayıllı rayon filialında girov qoyub.**




# "Bank VTB"-yə qarşı şok ittiham

## Xalid Əliyev deyir ki, bankdan kredit götürüb avtomobil aldı, 2 ay ödəniş edə bilmədiyi üçün zorla əlindən aldılar, üstəlik...

Hər ay 502 manat olmaqla, təxminən 8 ay müddətində kredit borcunu davamlı olaraq və vaxtında ödəyib. Sonradan ailəvi problemləri yarandığından 2 ay krediti ödəyə bilməyib. Bu zaman ona bank tərəfindən xəbərdarlıq gəlib: "Getdim, dedim ki, imkanım yoxdur, gələn aydan ödəyəm. Dedilər artıq lazım deyil, avtomobil hərraca çıxarılacaq", - deyən Xalid Əliyevin sözlərinə görə, sonradan avtoservisdə maşının yağını dəyişdirərkən, "Bank VTB"-nin İcra şöbəsinin "qoluzorlu əməkdaşları" güc tətbiq edərək avtomobili əlindən alıblar.

X.Əliyev deyir ki, bu hadisədən sonra avtomobilinin harada saxlanıldığından xəbərsiz olub. 2017-ci ildə isə, ona xəbərdarlıq edilmədən, maşının hərraca çıxarıldığı və dəyərindən bir neçə dəfə aşağı qiymətə - 4 min manata satıldığı haqda məlumat əldə edib. Şikayətçinin sözlərinə əsasən, avtomobil ondan alındıqdan sonra həm naməlum şəxslər tərəfindən sürülərək yararsız hala salınıb, həm də guya "qəza keçirdiyi" görüntüsü yaratmaqla müəyyən detalları sökülüb. Burada isə məqsəd avtomobili hərracda dəyərindən aşağı qiymətə öz yaxın adamlarına satmaq olub. Beləliklə, ona məlumat verilmədən, avtomobil dəyərindən çox aşağı qiymətə bank rəhbərliyinə yaxın şəxsə satılıb. Ən maraqlısı isə odur ki, hərrac zamanı avtomobilin buraxılış ili 2012 deyil, 2007 kimi göstərilib.




Xalid Əliyev bildirir ki, avtomobil hərraca çıxarılan günədək başqa şəxslər tərəfindən idarə olunduğundan, onun adına 2 min manata yaxın cərimə gəlib. Bütün bunlarla bağlı Dövlət Yol Polisinə müraciət etdikdən sonra həmin cərimələri sildirməyə nail olub.

Ən maraqlısı isə odur ki, "Bank VTB" X.Əliyevin avtomobilini zorla əlindən aldıqdan sonra "banka dəyən zərərin" ödənilməsi tələbi ilə məhkəməyə müraciət edib. 03.09.2014-cü ildə İsmayıll rayon Məhkəməsinin hakimi Azad Əliyevin qərarı ilə Xalid Əliyevin üzərinə belə bir öhdəlik qoyulub: "Əliyev Xalid Paşa oğlundan 9710.87 ABŞ dolları məbləğində əsas borc, 120.21 ABŞ dolları məbləğində faiz borcu və 1,40 ABŞ dolları məbləğində cərimə olmaqla, cəmi 9832.48 ABŞ dolları 48 sent Azərbaycan Respublikası Mərkəzi bankının ödəniş gününə müəyyən edilmiş məzənnəsinə uyğun olaraq manat ekvivalentində hesablanmaqla və ödənilmiş dövlət rüsumunun əvəzi kimi 30 manat tutularaq Bank VTB (Azərbaycan) ASC-nə ödənilməsi, 9832.48 ABŞ dolları 48 sent və 30 manat məbləğinin tutulması ipoteka qoyulmuş Əliyev Xalid Paşa oğlunun adına AR DİN-nin Baş Dövlət Yol Polis İdarəsi QİS tərəfindən qeydiyyata alınmış "Chevrolet Aveo" minik markalı 99 DL 306 dövlət qeydiyyat nişanlı, buraxılış ili 2012-ci il olan, sedan tipli mühərrik A14XER19YTC025 və ban KLİTF69F9CB135575 olan avtomobilə hərrac vasitəsi ilə satılmaqla yönəldilməsi qət edilmişdir".

Bundan sonra "Bank VTB" (Azərbaycan) ASC-nin İsmayıllı rayon icra şöbəsinə ünvanlanmış 09.08.2016-cı il tarixli 15440 saylı məktubuna əsasən, Əliyev Xalid Paşa oğluna məxsus və ipotekaya qoyulmuş "Chevrolet Aveo" minik markalı 99 DL 306 dövlət qeydiyyat nişanlı avtomobil "Bank VTB" (Azərbaycan) ASC-nin Sabunçu rayon ərazisində yerləşən dayanacaqda yerləşdiyi üçün Sabunçu İcra şöbəsi tərəfindən həmin avtomobilin qiymətləndirilməsi məqsədilə "Daşınar və Daşınmaz Əmlakların Qiymətləndirilməsi Xidməti" MMC-nə 1002-16340/8 saylı 06.02.2017-ci il tarixdə məktubla müraciət edilmiş həmin iş üzrə əmlakın qiymətləndirilməsi nəticələri haqqında hesabata əsasən mübahisələndirilən daşınar əmlakın ilkin qiyməti "Daşınar və Daşınmaz Əmlakların Qiymətləndirilməsi Xidməti" MMC-si tərəfindən avtomobilə 4000 manat qiymət qoyulmuşdur. İddia ilunur ki, sənədlər Daşınar və Daşınmaz Əmlakın Hərrac mərkəzinə göndərilmişdir: "Daşınar və Daşınmaz Əmlakın Hərrac mərkəzi tərəfindən tərəflərə göndərilmiş 19.05.2017-ci il 01/1867 saylı və 02.06.2017-ci il tarixli 01/2008 saylı açıq hərracın keçirilməsinə dair bildirişlərə əsasən, Əliyev Xalid Paşa oğluna məxsus və ipotekaya qoyulmuş "Chevrolet Aveo" minik markalı 99 DL 306 dövlət qeydiyyat nişanlı avtomobilin açıq hərracda satılması 19.06.2017-ci il tarixə təyin edilmişdir.

İcra predmeti olan yuxarıda göstərilən avtomobilin açıq hərracının nəticələri haqqında 19.06.2017-ci il tarixli 3702 saylı protokoluna əsasən Əliyev Xalid Paşa oğluna məxsus və ipotekaya qoyulmuş "Chevrolet Aveo" minik markalı 99 DL 306 dövlət qeydiyyat nişanlı avtomobil qalib alıcı İsmayılov Məmməd Şahin oğlu tərəfindən 6400 manata alınmışdır. Bundan sonra icra işinə Sabunçu rayon məhkəməsinin İcra şöbəsi tərəfindən 22.08.2019-cu il tarixli qərarı ilə xitam verilmişdir".

Qeyd edək ki, Əliyev Xalid Paşa oğlu məhkəmənin bu qərarından apellyasiya şikayəti verib. O, hesab edir ki, qiymətləndirmə hesabatı və açıq hərracın nəticələri barədə 19.06.2017-ci il tarixli 3702 saylı protokol və onun əsasında bağlanmış alqı-satqı müqaviləsi etibarsız hesab edilməlidir: "Belə ki, mən kredit götürdüyüm zaman işləyirdim. Daha sonra, işimi itirdiyim üçün maddi vəziyyətimdə problemlər yaranmışdır. İmkanım olmadığına görə, banka olan borcumu ödəyə bilməmişəm. Bildirirəm ki, 2012-ci ilin avtomobili "2007-ci il" kimi yazılaraq saxtakarlıq edilmişdir. Daha sonra qiymətləndirmə düzgün aparılmamış, sənədlərə müdaxilə olunmuşdur.

Fotoda göstərilən avtomobil mənim deyildir, başqa avtomobil qoyulmuşdur. Avtomobil yeni, real bazar qiyməti 16 min manat olduğu halda 4 min manata satılmışdır. Buna mənim razılığım olmamışdır. Avtomobilin yağını dəyişdirdiyim zaman məcbur əlimdən alınmışdır. Halbuki ilkin ödəniş etmişəm. Mənim ilkin ödənişim verilsin, ya da maşınım qaytarılsın. Cavabdeh - "Bank VTB" (Azərbaycan) ASC bu günə kimi pulunu tələb etməmişdir və mənim pulumu mənimsəmək niyyətindədir.

Belə ki, qiymətləndirmə hesabatı, hərracın nəticəsini və avtomobili "Bank VTB" (Azərbaycan) ASC qəbul etmişdir. Sabunçu icra şöbəsinin xitam qərarı ləğv olunduğu halda X.Əliyevin mülkiyyətində olan sözügedən avtomobilin qaytarılması üçün axtarışını tələb edirik".

Qeyd edək ki, bütün bunlara baxmayaraq məhkəmə qərarı Əliyev Xalid Paşa oğlunun əleyhinə, "Bank VTB"-ın lehinə olub. Üstəlik, hazırda ondan "banka olan 6 min manat borcunun" ödənilməsi tələb edilir. X.Əliyevin sözlərinə görə, İsmayıllı rayon İcra şöbəsində ona deyiblər ki, 1500 manat qarşılığında bütün borcu silə bilərlər: "Əlavə olaraq 6 min manat ödəməli olduğumu deyirlər. Yaşar adlı əməkdaş deyir ki, 1500 manat ver, hamısını siləcəm, sənə kağız verəcəm ki, borcunu yoxdur".

**Hazırladı: Jalə FAMİLQIZI**

***Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.***

# İcra Hakimiyyətinin şöbə müdiri vətəndaşın yolunu kəsib

## Akif Rüstəmov: "İcra başçısı da onun tərəfini saxlayır"



**Göygöl rayonu, Turan Qurbanov kuçəsinin sakini Rüstəmov Akif Xaliq oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Göygöl rayon İcra Hakimiyyətinin şöbə müdiri Ariz Eyvazov onun yolunu zəbt edib:**

"Mən, Rüstəmov Akif Xaliq oğlu, bildirmək istəyirəm ki, 2020-ci ildən yuxarıda qeyd etdiyim ünvanda yaşayıram. 4 ildir maşınımı öz həyətimə sala bilmirəm. Səbəb isə Göygöl rayon İcra Hakimiyyətinin şöbə müdiri Ariz Eyvazovdur.

Adını çəkdiyim şəxs qanunsuz olaraq mənim evimin qabağındakı yolu zəbt edib. Həmin şəxsə başqa bir yerdən əlavə torpaq verilməsinə baxmayaraq, 2 küçəni zəbt edərək vəzifəsindən sui-istifadə etmişdir. Rayonun icra başçısı və memarı da vəzifə sahibi olan Arizin tərəfini saxlayır. Başçının qəbulunda olmuşam, problemimi bildirmişəm. Mənimlə birgə yolun bağlanmasına narazı olan qonşum da yanımda olub. Memar deyir ki, cığır oldu bəsdir də. Memarın özünün evinin qarşısı, yolu kəsilsə, götürərmi? Bura dağ kəndi deyil ki, çığırlar olsun. Mənə yol göstərirlər ki, sən dünənki uşaqsan, darvazanı sök, dəyiş.

Mən bu qədər özbaşınalığın qabağında aciz qalmışam".

Azərbaycan xalqı hər zaman ləyaqətli, şərəfli oğulları ilə qürur duyub. Tarixin ən çətin dönəmində mərd oğullarımız öz sinələrini irəli verib və xalqımızın yolunda sipər olublar. Azərbaycanın dövlətçiliyinin var olmasında görünən və görünməyən qəhrəmanlarımız tarixi missiyalarını qürurla yerinə yetiriblər. Belə şəxsiyyətlərdən biri Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyatçısı Aydın Ələkbəroğlu (Abdullayev) olub. Təəssüf ki, belə dəyərli şəxsiyyət haqqında internetdə axtarış apararkən heç bir məlumata rast gəlmədim. Yaxşı ki, bu günlərdə tanınmış alim Nəriman Qasımoğlu Aydın Ələkbəroğlu haqqında paylaşım etmişdi. Paylaşımın şərh bölmələrində onlarla insan Aydın Ələkbəroğlu haqqında xoş fikirlərini bölüşüblər. Mən də Aydın Ələkbəroğlunu yaxından tanıtmaq üçün onu haqqında yazılanları sistemləşdirib, oxuculara təqdim etmək qərarına gəldim.



# Xəlil Rza Ulutürkün mitinqdə təriflədiyi DTK əməkdaşı...

## Aydın Ələkbəroğlu kim olub?



**Tanınmış alim Nəriman Qasımoğlu paylaşımında yazır...**

“Bu gün (red-28 mart) Azərbaycan təhlükəsizlik orqanlarının peşə bayramıdır. Səni, əziz insan, təkrarən xatırlamağa bu da bir bəhanədir. İşıqlı xatirən unudulmazdır. Təbəssümünü, zarafatlarını, ədalarını, xeyirxahlığını, mərdliyini doğmalıqla xatırlayıram. Təkcə mən yox, səni tanıyanların hamısı... Sovetlərin çətin illərində orqanlarda işləyəsən, arxanca danışan biri tapılmaya və haqqında hər zaman yalnız xoş sözlər danışıla...

Xəlil Rza Ulutürkün 20 yanvar faciəsindən sonrakı mitinqlərin birində ucadan səsləndirdiyi sözlər hələ də qulağımdadır: ”Yaşasın DTK-nın cəsur əməkdaşı, igidlərimizi iri cüssəli, sarışın slavyan əsgərlərinin cəngindən qoparıb xilas edən Aydın Ələkbəroğlu!”

Yazıçı dostlarının qəlbində işıqlı bir yerin var. Sənin həyatda da ən yaxınların elə yazıçılar olub: Abbas Abdulla, Əhəd Muxtar, Eldar Baxış, Səyavuş Məmmədzadə - ruhları şad olsun - , Seyran Səxavət, Akif Əhmədgil...

Səməndər Rzayevlə, Arif Quliyevlə də dostluğun bir ayrı aləm idi... Ədəbiyyata isə ümumilikdə Qasım Qasımzadə dünyasından uğurla yola çıxmışdın, ruhlanmışdın... Ruhuna salam olsun, əzizim, doğmam Aydın!”,- deyə N.Qasımoğlu fikirlərini oxucuya çatdırıb.

**Alim Aydın Ələkbəroğlunu tərcümeyi-halına və bədii yaradıcılığına nəzər salır, oxucuları yaxından tanış edir:**

“Aydın Ələkbəroğlu 1946-cı ildə Şuşada anadan olmuşdur. Bakıda 44 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinin ərəb bölməsində təhsil almışdır (1964-1970). Misirdə (1967) və Yəməndə (1970-1972) tərcüməçi işləmişdir. 1974-cü ildən ömrünün sonunadək Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsində çalışmışdır. Azərbaycan Milli Məclisinin deputatı olmuşdur.

Ədəbi yaradıcılığa 1966-cı ildə “Göyərçin” jurnalında dərc etdirdiyi “Təəccüblənmə, Elxan” adlı uşaqlar üçün yazılmış hekayə ilə başlamışdır. Bundan sonra dövri mətbuatda tez-tez maraqlı əsərlərilə çıxış edən müəllif oxuculara “Nübar” (1980), “Dağlar o dağlar deyil” (1984), “Gərək belə olmayaydı” (1988) və b. kitablarını təqdim etmişdir.

> Ədəbi yaradıcılığa 1966-cı ildə “Göyərçin” jurnalında dərc etdirdiyi “Təəccüblənmə, Elxan” adlı uşaqlar üçün yazılmış hekayə ilə başlamışdır. Bundan sonra dövri mətbuatda tez-tez maraqlı əsərlərilə çıxış edən müəllif oxuculara “Nübar” (1980), “Dağlar o dağlar deyil” (1984), “Gərək belə olmayaydı” (1988) və b. kitablarını təqdim etmişdir.

Qısa bir ömür yolu keçmiş yazıçı bədii tərcümə ilə də məşğul olmuş, Şərq ədəbiyyatından nümunələri dilimizə tərcümə etmişdir.

Tərcümələri sırasında dünya ədəbiyyatından nümunələr də var: ”Dünya uşaq ədəbiyyatı” seriyasından Qrim qardaşlarının nağılları, Pivovarovun “Üç minus və ya 5a sinfində əhvalat” povesti, Yanuş Korçakın ”Kral Birinci Matiuş” əsəri, Saya Kazisin ”Taxta başmaqlar” hekayələr toplusu, Stendalın məşhur “Qırmızı və qara” romanı...”.

**Uzun illər Azərbaycan xüsusi xidmət orqanlarının əməkdaşı olmuş, ehtiyatda olan polkovnik siyasi şərhçi Elşad Həsənov Aydın müəllim haqqında xoş xatirələrini bölüşüb:**

“Aydın müəllim ziyalı insan idi. Sovetlər dönəmində Azərbaycan Yazıçılar Birliyinin kuratoru olmuşdur. Ziyalılarla xoş münasibət qurmuşdur. Onlarla tez-tez mədəni-bədii məclislər təşkil edirdi. Yazıçılıq qabiliyyəti var idi. Bir neçə əsəri tərcümə etmişdir. Əsl ziyalı və peşəkar əks-kəşfiyyatçı olub. Azərbaycan xalqının ən çətin vaxtında yanında olan Dövlət Təhlükəsizlik Komitəsinin vətənpərvər əməkdaşlarından idi. Bu gün onun xatirəsi xoş təəssüratlarla xatırlanır”.

**Feysbukda Azər Məmmədov adlı istifadəçi Aydın Abdullayev haqqında xoş xatirələrini bölüşüb:**

“Aydın Abdullayev 1990-cı illərdə Salyanda DTK (KQB) rayon şöbəsinin rəisi işləyib. Tutduğu vəzifənin adı bir az ağır olsa da, çox sadə, mehriban, xeyirxah bir insan, Salyan ziyalılarının, bütün rayon əhalisinin sevimlisi olmuşdur. O, çətin və ziddiyyətli dövrdə vəzifəsinə görə nə qədər çətin olsa da, xalqın yanında olmuş, vətənpərvərlik nümayiş etdirmişdir. Bu gün də Salyan camaatı haqlı olaraq onu böyük hörmət və ehtiramla xatırlayır. Allah rəhmət eləsin”.

Tanınmış jurnalist Hidayət Elvüsalı şərhində onu yazıçı, gözəl insan kimi xatırlayır:

“DTK-da işləyərkən bir erməni çetesini darmadağın etmişdi. Az.TV-də o alçaqların ilk və məhkəmə istintaqını göstərmişdilər. Bu erməni terrorçuları Bakıda təhsil alan xarici ölkə vətəndaşını öldürüb, pullarını götürmüşdülər. Və o pulları yeyib-içməyə, kef məclislərinə sərf etmişdilər. Həmin terrorçuları Aydın ifşa etmişdi. Allah rəhmət eləsin”.

**Tanınmış tənqidçi Qurban Bayramov Onu adına layiq şəxsiyyət kimi xatırlayıb:**

“Aydın adına layiq insan idi... Xeyli müddət tanış olsaq da, rəhmətlik Fəxrəddin Qasımzadənin hüzüründə elə bil doğmalaşdıq... Qonşum Eldar Baxışla dostluğu da bu münasibətləri intensiv edirdi...

Şirin, məzmunlu, realist detallarla zəngin olan nəsr əsərlərinin müəllifi kimi tanınırdı...

Yaradıcılığı barədə bir neçə dəfə radionun ədəbi verlişlərində çıxışlarım olubdur...

Allah rəhmət eləsin...”.

**Bəli, belə şəxsiyyəti cəmiyyətə tanıtmaq vacibdir. Gənclərimiz onların həyat yoluna nəzər salmalı və özlərinə örnək seçməlidirlər. Aydın Ələkbəroğlu da belə şəxiyyətlədən olub.**

**Elnur ELTÜRK**

Mən Şıxov çimərliyi - Ələt yolunu on illərdir gedib - gəlirəm. Vaxt vardı Xəzər boyu bu məsafədə açıqlıq insanı dənizə çağırırdı. Cənubdan gələn avtobuslar, yük maşınları dayanır, xüsusilə, sürücülər dənizə tərəf tələsirdilər... Bu xoş əhvalat mənim də başıma gəlmişdi. O günlər bu gün xoş xatirəyə çevrilmişdir. "Ötən günə gün çatmaz", - deyiblər!





Allahverdi Eminov

# Daş hasarlar və qadınlar...

## (Əxlaqi katasisin iflası)

Vaxt yetişdi, illər dolandı, Xəzəri gedib - gələnlərdən gizlətdilər, daş hasara aldılar, yəqin ki, nəzərdən, göz dəyməsindən ehtiyat elədilər daş hasarların sahibləri: Xəzəri, onun çimərliyini sadə Bakı əhalisinin əlindən aldılar, iaşə obyektlərinin, villaların müəllifləri.

***(Əvvəli ötən sayımızda)***

Dilşad xanım iti və həssas gözlərilə qadınlarda "ən xırda", zahirən nəzərə çarpmayan nöqtələrə, nəsnələrə bir biçarəlik hərislik gizlənmiş nəzəriylə baxır və bu gözədəyənlərin içində dəhşətli nəyinsə gizləndiyini aydınlığı ilə təsəvvür edirdi. Sayqanı da beləcə oxşamış, ruhunu qıdıqlamış, açıq təbəssümlə dillənmiş: - Cavanlıq dairəsində üstünlük sənin tərəfindədir, - demişdir. - Səndə kişini təlatümə sürükləyən hissiyyat var. Çalış ünsiyyətində utancaqlığına qalib gəl. Sözlərimi danlaq kimi qəbul etmə. Sən elə bir Məkandasan, xoşbəxtliyinə mən zəmanətliyəm. Sayqa daxilən çevikliyə, hazırcavablığa malik idi. Divanda oturub dolu və dümdüz ayaqlarını qoşalaşdırmışdı. Bu oturuş Dilşad xanımın diqqətindən yayınmadı və həmişə ürək yanğısı ilə ürəyində dolandıran: "Allahım, məni nə üçün qadın yaratdın, yaratmışdınsa niyə qocaltdın" sözlərini içində qapadı.

Sayqa hiss edirdi bu qadın artıq onu mingirləmişdir və başqa nicat yolu görünmür. Ürək çırpıntısı ilə onun barmaqlarını sıxdı, yerini dəyişdi, dairəvi masa arxasına keçdi.

- Tale sənə verən bu bədəni heçə - puça xərcləməyəcəksən. - Dilşad gülümsədi və başını buladı. - İnanıram!

Sayqa telefon danışığından sonra Dilşad xanımla münasibətinin tamam qırılacağına şübhə etmirdi, ona lazımi tənəsini çatdırmışdı, bəlkə də üzbəsurət bu hərəkətə yol verməzdi, cürəti də çatmazdı. Olsun ki, keçmişdə qalan xatirələri buna imkan yaratmazdı, çünki zina dolu idi. Məhz bu qadın sanki qızların qeyri - qanuni qadınlaşmasından zövq alırdı, bəlkə də cavanlığını itirdiyi üçün belə bir yolu seçmişdi. Yuxarı dairəyə düşdüyü üçün ona münasib idi. Başçının "elitar dairəsi" hələ hərlənirdi karusel kimi. Səmaya qalxanda hər şey mavi rəngdə görünürdü, dəniz də, onun balıqları da, hər biri "satılmış" buruqları da. İndi bu dəmir buruqlar qocalmışdır. Bax, Dilşada təsir edən həyatın bu qanunu idi!

O gün Sayqa necə də qəşəng idi, bəlkə belə olmamışdı. Yox, sonra çiçək kimi açıldı, fərdi qonaqlığın şahzadəsi oldu. Özünə münasib geyinir, tualetini mütəmadi təzələyir, "varlığa nə darlıq"! O gün baxdım ona: koftasının altında daş kimi məmələri irəli dartılır, iri gilələri əsirdi. Görünür, sahibi - xüsusi vurğu ilə dedi. - Yavaş - yavaş hardan enir, yoxsa... - Dilşad dik alnını ovuşdurdu. Fikrini, daha doğrusu, Sayqa ilə bağlı mövzusunu başqa yönə gətirdi və "telefon mücadiləsini" gündəmə gətirdi: Qisas! Daha o, əldən çılğın balıq kimi sürüşmüşdür, daha tilova yaxınlaşmır. Qanuni ərinin qulluğundadır. Böyük alimliyinə öyünür. Həqiqətən dahidir. Fəlakət törədəcək işlərlə məşğuldur.

Sayqa da öz növbəsində qisasını "planlaşdırmaq" üzərində düşünürdü. O, alicənab kişinin, mövcud ərinin gözündə qəbahət işilə evinə ayaq basmışdır, ən qiymətli üzüyünü barmağından çıxarılmışdır. Sayqa bu olayı heç vaxt unutmayacaqdır, ürəyində, beynində onun əmanətinin yeri bomboşdur, naqis kişi tərəfindən oğurlanmışdır, qisasçılıq hissləri o yerə can atırdı. Əzabverici görüşləri onun saf, sonra tapdanmış nadir nemətin altında qalmışdır, əzilmişdir, əzabverməkdə olan xəcalət hissini indi yumaq istəyirdi, cəsarət göstərib ərinin gözlərinə baxmaq niyyətindən dönməyi qərara almışdır. Onun aləmincə Qadın bir mələk simasında paklıq, təmizlik zirvəsindən baxmalıdır. Sarsılmaz görünüşünü ərinin yatağına aparmalıdır.

Sayqanın bədəni keyləşdi, dodaqları əsdi, özünə verəcəyi sualları dəqiqləşdirməyə bilməzdi.

Sayqanın əri bir dəfə də olsun arvadının keçmişilə maraqlanmamışdı, bu qadının ona olan şəfqət hissi qarşısında özünü xəcalətli hesab etməsə də Bakıya gəlişində Sayqaya xəbərdarlıqla bildirirdi ki, doğmalarına baş çək, ancaq əliboş yox. Mən axşamlar sənin ixtiyarında olacam. Ehtiyac varsa zəng at görüşək. Bu iltifat Sayqanın "gündəlik" payı idi. Taleyindən razı qalmışdı, amma nə qədər həlimlik göstərsə də, daxilində "səbəbsiz xəcalət" hissindən uzaqlaşmağı bacarmırdı. Dilşad xanıma qarşı hər qadına məxsus olmayan kin, qəzəb və qisas duyğusundan əl çəkmirdi: "Bu qadın neçə-neçə Sayqaların taleyini fahişəliyə aparmışdır, başçı kimi başsızların da taleyinə kölgə salmışdır" - Düşünür və: "Başçı da mənim siyahımdadır" - qətiyyətindən əl çəkmirdi. Qəzəb coşğunluğu isə söhbətin konkret predmetini dəqiqləşdirmişdi, öz ruhi halətinin hayında vurnuxurdu, xoş günlərinin ifadəsini söndürmək məcburiyyətində qalardı. Qəzəbi üfürülən şamın alovu kimi titrəyir, amma sönmürdü. Belə halında onun dodaqlarından kövrək və möhkəm təbəssüm çəkilirdi.

Sayqa təkliyinə möhkəmcə darıxdı və ərinin gəlişi ərəfəsində xüsusilə qəribsədi. İxtiyarsız qapıya gözlərini dikib hərəkətsiz dayandı. Mətbəxdə qaynayan qəhvədanın "xəbərdarlığını" belə eşitmirdi. Birdən qapının çöl tərəfində öskürək səsini aldı, yad səs deyildi, işığa çıxdı, qapını ustufca açdı, içəri daxil olan ərini, cəfakeş adamı qucaqladı, əsəbi halda başını onun çiyninə qoydu, dodaqları əsdi.

Sayqa özünə danışırdı: "Mən adi ailədə böyümüşəm, kübar cəmiyyətinə alışmamışam. Ərim mənə oxşamır xasiyyətcə, əslində mən də. Dilşad elə bilir ki, mən özümü səfehliyə qoymuşam. Lakin Sayqanın qəlbində şəfqət duyğusu baş qaldırmışdır, ona görə ki, bu hissi oyadan ərində mərdanəlik vardır, arvadının gələcək ana qüdsiyyətini təsəvvür edirdi: qadınlarda, əlbəttə, hamısından çox - qeyri - ixtiyari narahatçılıq və qorxu həyəcanı axtarmaq istəmirdi, ürəyinə qəribə şübhə də danmırdı.

Sayqa isə başqa bir düşüncənin altında idi, Dilşadla danışığından sonra hissiyyatını yumşalda bilmirdi, olub keçmiş olaylardan utanırdı, amma arzusu bu idi doğulmaqda olan məhəbbəti itirməsin, onu sarmış duyğular məhz məhəbbətdir. Əri istedadlı insandır, hələ onun gizli ehtiyatları üzə çıxmamışdır, bunlar ondan da asılıdır.

- 0 -

Məmləkət general Kəngərlinin arvadı idi, sevilməmiş və sevməmiş ərə getmişdi. "Açıq dənizə" tələsən balıq tək azadlığa qovuşmaq istəyirdi. Bu, şəhvət hissidirsə beynində, şüurunda oyanmışdı. Cənnət Məkana əriylə gəlirdi. Qulağı almışdı əri "qulluqçu" adlanan qəşəng, dolu bədənli qadınla mığırlaşır. Axır ki, zənnində aldanmadığını başa düşdü, onda qisas almaq inadı baş qaldırdı. Bu isə qadını xəyanətə aparır. Vahimələndi bu "ikiayaqlı" iblis onu nə vaxtsa yaxalayacaqdır. Məmləkət balkona çıxıb, az sonra qayıtdı. Güzgüdə əksini görüb canı uçundu və İlahi qüvvəyə yaxınlaşdı, ehtirasını bədənindən qovmağı bacardı: Bolluca sərvət, fövqəl geyim, dar macalda xaricə uçmaq, ərinin vəzifəsi, tələbatın subyekti olması onun qarşısında imperativlik həyatı borc kimi durdu. Hələ o, iradəsinin, ehtirasının öhdəsindən gəlirdi. Bəs səbəb nəydi Məmləkət gənc prorab Qocaoğlu ilə görüşmək istəyirdi. Bir dəfə Cənnət Məkanda onunla söhbət etmişdi. Hər ikisi dənizə baxan yaşıllığa bələnmiş yerdə oturmuşdur. Narahatdı Qocaoğlu, amma özünü o yerə qoymurdu. Məmləkətin baxışlarına tab gətirməkdə aciziydi. Məmləkət Qocaoğlunun dənizə yol almış baxışlarında nəyinsə cavabını axtarırdı. Bu dəm kitab Məmləkətin əlindən düşdü, Qocaoğlu kitabı götürəndə əli Məmləkətin ağappaq baldırlarına toxundu, sanki cərəyan vurdu onu, büruzə vermədi.

- Sağ olun. - Məmləkət minnətdarlığını bildirdi özünü sığorta etmək üçün: - Bu kitab məni dəli edəcək, - dedi.

Qocaoğlu başa düşdü ki, general arvadının ona hansısa "bucaqdan" marağı var. Bu qadının hərəkətlərində rüsvayçılıq özünü gizlədə bilməz:

- Məmləkət xanım, sizi bu vəziyyətdə mənimlə görmək ağırdır. Düşünmək olar ki, - səsimin ahəngi yavaşıdı. - Hər şey, hər ümid məhvə gedər. Siz mələksiz, mələklərə zərbə tez dəyir. - Ayağa qalxdı getmək üçün.

**Məmləkət onun qolundan tutub saxladı:**

- Tələsmə, mən sənin qarşında dayanmışam. Mən buraya sevgimi etiraf etməyə gəlməmişəm. Mən uçurumdan qorxmuram. Səni bu uçurumdan xilas etmək gücündəyəm, bircə hisslərimdən savayı.

Məmləkətin barmaqları titrəyirdi.

- Məni özgə aləm çulğalamaqdadır, mübarizə aparmaq taqətim çatmır.

Onun üzü qızarmışdı, qaşları çatılmışdı, solğunlaşan üzü səyriyirdi. Hisslərinin vurduğu zərbəni itaətkarlıqla qəbul etməyə hazırdı: "Bəlkə də o, başqa qadına vurulmuşdur. Onu anlamaq çətin deyil". - Ürəyindən keçirdi.

- Səni qorxaqlıqda günahlandırmaq istəmirəm. Buna layiq görmürəm.

Qocaoğlunun ürəyində səsləndi: "Bundan sonra həyatım necə olacaq?

- 0 -

Nəzakət mini cıdırda nazirlə görüşdü, Sərvərlə gəlmişdi. Aralarında kiçik söhbət oldu:

- Mən atçılıqla tələbə vaxtı ciddi məşğul olmuşam. - Qadın bildirdi. - Bu meydanda da məşq eləmişəm. Sizə məsləhət bilməzdim, cənab nazir. - Atın boynuna sığal çəkdi, başını özünə tərəf əyib gözlərindən öpdü və gülümsədi. -Məsləhətim odur. - Sözünə ara verdi, at fınxırdı, qabaq ayaqlarını yerə döydü. - Sabah xaricə, Amerikaya uçuram. Orada, ərimin uroloq - həkim dostları var, sizin müalicənizi öhdələrinə alarlar. Gəlsəniz Sərvərlə uçun.

Nazir gözlərini döydü, başını aşağı saldı və cavab vermədən uzaqlaşdı.

- 0 -

Dilşad xanım qəfil "bəd" xəstəliyə tutuldu, təcili onu xəstəxanaya yerləşdirdilər başqa diaqnozla.

- 0 -

General Kəngərlini "yuxarı" çağırdılar, tapşırdılar ki, sabahdan "daş hasarlar" söküləcəkdir, "Cənnət Məkan" ümumi sanatoriyaya çevriləcəkdir, veteran neftçilər üçün nəzərdə tutulmuşdur. Bütün yenidənqurma işləri prorab Qocaoğluna həvalə olunmuşdur.

- 0 -

Sayqa "qulluqçu" və digərləri barədə cinayət işi qaldırılmışdır, istintaq işi aparılır.

- 0 -

Məmləkət general əriylə barışmaq niyyətindən imtina etdi, boşanmaq haqqında ərizə yazdı.